Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 60 (8083) CÜMƏ, 15 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İlham Əliyevdən dünyaya sülh, ədalət və əməkdaşlıq çağırışı

## Bakı növbəti beynəlxalq tədbirə evsahibliyi edir

Dünən VII Qlobal Bakı Forumu öz işinə başladı. Üç gün davam edəcək forumda 55 ölkədən 500-dən artıq nümayəndə iştirak edir. Budəfəki mövzu “Dünyanın yeni xarici siyasəti”dir.

### Azərbaycanın təşəbbüsləri beynəlxalq səviyyədə dəstək qazanır

Öncə onu qeyd edək ki, Azərbaycan yalnız bölgənin lideri, dünyada söz sahibi olan  və müstəqil siyasət həyata keçirən ölkə kimi tanınmır. Azərbaycanı dünyaya tanıdan başqa bir səbəb təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, milli və ümumbəşəri dəyərlərin, multikulturalizm ənənələrinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə, problemlərin həllinə dəyərli töhfələr verməsidir. Artıq xeyli müddətdir ki, ölkəmiz bütün dünyanın diqqət mərkəzində olan qlobal məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır. Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir. Azərbaycanın təşəbbüsü ilə yaranan Bakı Prosesi qlobal hərəkata çevrilib və BMT tərəfindən dəstəklənir.

Qlobal forumun Bakı şəhərində keçirilməsi də dünya ictimaiyyətinin Azərbaycana olan hörmətinin, etimadının, ölkəmizin dünya siyasətində, beynəlxalq münasibətlər sistemində yerinə və roluna, habelə siyasi və humanitar dialoqun inkişafına  töhfələrinə verilən qiymətin real ifadəsidir. Qlobal Bakı Forumu dövrümüzün aktual məsələlərinin, dünyada baş verən mühüm hadisələr və cərəyan edən proseslərin müzakirə olunduğu mühüm platformadır. Belə ki, bu müzakirələrə onlarla ölkədən görkəmli dövlət xadimləri, tanınmış siyasətçilər, diplomatlar qoşularaq diskussiya və dialoq aparırlar. Bu mənada forum keçmiş və indiki liderlərə qlobal problemləri müzakirə etməyə, onların həlli yollarını tapmaq yolunda səylərə şərait yaradır. Ona görə də bu forumun dövlətlərarası əməkdaşlığa, siyasi münasibətlərə konstruktiv töhfə verdiyi, qarşılıqlı siyasi anlaşma üçün əlverişli şərait yaratdığı şübhəsizdir.

Dünən VII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu forumun dünyada cərəyan edən vacib prosesləri müzakirə etmək üçün mühüm beynəlxalq platformaya çevrildiyini bildirib. Forumda dünyanın nəhəng intellektual potensialının cəmləşdiyini deyən Prezident İlham Əliyev bunun tədbirin miqyasını təcəssüm etdirdiyini, Bakı Forumunun beynəlxalq aləmdə misilsiz yeri olduğunu nəzərə çarpdırıb.

Prezident İlham Əliyev forum iştirakçılarının diqqətini dünyada sabitliyin bərqərar olması üçün mühüm amil olan multikulturalizmin Azərbaycandakı ənənələrinə də yönəltdi, bu ideyanın dünyada təbliğ edildiyini vurğuladı. “Bu gün Azərbaycan nümayiş etdirir ki, yalnız multikulturalizmin təşviqi ilə dünya irəli gedə, gərginlik azala bilər”, - deyən dövlət başçısı Azərbaycanın gənc, müstəqil ölkə olmasına baxmayaraq, beynəlxalq təşkilatların dəstəyini qazandığını bildirdi. Ölkəmizin beynəlxalq təhlükəsizliyə verdiyi töhfəsini qeyd edən Prezident İlham Əliyev nəqliyyat və enerji layihələrimizdən danışdı, bunun beynəlxalq əməkdaşlığın mühüm hissəsi olduğunu dedi, bu istiqamətdə reallaşdırılan layihələrin ölkələri daha da yaxınlaşdırdığını, əməkdaşlıq üçün yeni körpülər saldığını vurğuladı.

### Səmərəli diskussiya və dialoq platforması

Xatırladaq ki, indiyədək 6 Qlobal Bakı Forumu keçirilib. İlk dəfə 2013-cü ildə keçirilən forumda qadın məsələləri, dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, Dağlıq Qarabağ münaqişəsi və bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət müzakirə olunub.

2014-cü ilin aprelində keçirilən ikinci forumun gündəliyinə açıq cəmiyyətlərin əhatə dairəsi və əsasları, iqtisadi dayaqları, mürəkkəb situasiyalarda münaqişələrin həlli üsulu, davamlı inkişaf prosesinin təmin edilməsi üçün multiidarəetmə və institusional çərçivəyə olan ehtiyac və digər mühüm məsələlərin müzakirəsi daxil idi.

Üçüncü forum 2015-ci ilin aprelində keçirildi. “Yeni dünya düzənində etimadın bərpa olunması” mövzusuna həsr olunan bu forumda nüfuzlu siyasi liderlər dünyanı narahat edən məsələlər - etnik və digər zəmində baş verən münaqişələr, terror təhdidləri, demokratiyanın inkişafı, təhsil, ekologiya, enerji təhlükəsizliyi, dinlərarası dialoq, sülhün qorunmasında qadınların rolu və bir sıra qlobal problemləri müzakirə etdilər.

IV Qlobal Bakı Forumu 2016-cı ilin martında keçirildi. “Çoxqütblü dünyaya doğru” mövzusuna həsr edilən forumda münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunmasında radikallaşma və miqrasiya amillərinin rolu kimi mühüm məsələlər müzakirə olundu.

2017-ci ilin martında keçirilən V forum “Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar” mövzusuna həsr olunmuşdu. Forumda 56 ölkədən 300 nəfərədək nümayəndə, o cümlədən müasir dünya siyasətinin yönləndirilməsində, bir çox regional proseslərin qiymətləndirilməsində mühüm rolu olan çox nüfuzlu dövlət xadimləri, siyasətçilər, elm adamları, siyasi ekspertlər iştirak etdi.

Ötən il mart ayında keçirilən VI forumda “İnklüziv cəmiyyətlərin qurulması üçün ziddiyyətlərin uyğunlaşdırılması” mövzusu müzakirə edildi. Forumda beynəlxalq münasibətlərdə güc anlayışı, Yaxın Şərq regionunda sülh və təhlükəsizlik, Balkan regionunda hazırkı və gələcək vəziyyət, Çinin xarici siyasəti, kapitalizmdə iqtisadi inkişaf və ətraf mühitin deqradasiyası məsələləri, nəsillər arasındakı bağların qırılması, dini-mədəni müxtəlifliyin siyasi liderlik uğrunda rolu kimi mövzular müzakirə edildi.

Dünəndən isə VII forum öz işinə başlayıb. Tədbirdə hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazir, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıb. Forum çərçivəsində keçiriləcək 10 sessiyada qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Bütün bunlar göstərir ki, Qlobal Bakı Forumu səmərəli diskussiya və dialoq məkanıdır. Bu diskussiyalara görkəmli dövlət xadimləri, tanınmış siyasətçilər qoşulurlar. Ona görə də bu qlobal platformanın dövlətlərarası əməkdaşlığa, siyasi münasibətlərə konstruktiv töhfə verdiyi, qarşılıqlı siyasi dialoq üçün əlverişli şərait yaratdığı şübhəsizdir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Azərbaycan səmərəli tərəfdaşlığın uğurlu platforması, qlobal təhlükəsizliyə töhfə verən regional liderdir

Martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki,  Prezident İlham Əliyev forumun açılış mərasimində iştirak edib.











Dövlət başçısı qlobal forumun iştirakçıları ilə görüşdü.

Sonra birgə foto çəkdirildi.

Martın 16-dək davam edəcək VII Qlobal Bakı Forumunun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. “Dünyanın yeni xarici siyasəti” mövzusunda keçirilən foruma hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıblar. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Bu mövzular arasında “Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu”, “Davamlı inkişaf çağırışları”, “Təhlükəsizlik naminə orta Şərq əməkdaşlığı”, “Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu” və digərləri var. Forumun əsas panel iclaslarından biri də gənc liderlərin qlobal siyasətdə roluna həsr olunacaq.

Yeddinci Qlobal Bakı Forumunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** açaraq dedi:

- Zati-aliləri, xanımlar və cənablar.



Mənim adım İsmail Serageldindir. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədriyəm. Artıq dünyanın aparıcı tədbirləri sırasında öz yerini tutan VII Qlobal Bakı Forumunda sizi salamlamaqdan məmnunam.

Bu tədbirə bir çox mütəxəssislər və təcrübəli şəxslər toplanıb.

Builki forumun mövzusu sanki dünyanın tektonik hərəkətinə bənzər bir mövzudur.

Nəticə olaraq insanların taleyində bir axın var ki, onları ən aşağı səviyyədən ən yüksəyə qaldıra bilər.

Bu fürsəti qaçırsanız həyatda uğursuzluqlara düçar olacaqsınız.

Hazırda durğun dənizin üzərindəyik.

Lazımi anda bu fürsətdən istifadə etməliyik, yoxsa uğur bizdən yan keçəcək.

Biz bu fürsəti qaçırmamalıyıq, çünki buraya açıq zehin və sağlam iradə ilə gəlmişik.

Növbəti günlərdəki müzakirələrə başlamazdan əvvəl istəyirəm ki, qürur hissi ilə sözü bu günün ilk natiqi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin himayədarı, ev sahibi zatialiləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vermək istəyirəm.

Azərbaycan Prezidenti İlham Əliyev forumda nitq söylədi.

***Bax: səh. 2***

# İlham Əliyevin islahatlar konsepsiyası dünyada ən səmərəli modellərdəndir

**Azərbaycan iqtisadiyyatında xüsusən son iki ildə yenidən vüsət alan inkişaf Prezident İlham Əliyevin başlatdığı yeni iqtisadi islahatların uğurlu nəticələridir.**



Belə ki, 2016-cı ilin əvvəllərindən başlanan kompleks islahatlar milli iqtisadiyyatımızın inkişafında tamamilə yeni mərhələnin əsasını qoydu. Bununla da respublikamızda dayanıqlı inkişaf təmin edildi.

Təbii ki, iqtisadiyyatın yenidən dirçəlməsi, artan maliyyə imkanları digər sahələrdə də dövlət siyasətinin daha dolğun həyata keçirilməsini təmin edir. Bunu müxtəlif sahələrdə, xüsusən sosial sferada genişmiqyaslı tədbirlərin həyata keçirilməsi ilə müşahidə edirik. Hələ 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev gələcək fəaliyyət prioritetlərini elan edərkən sosial məsələlərin diqqət mərkəzində olacağını bəyan etmişdi. *“Gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır”* deyə cənab Prezident bildirmişdi.

Budur, 2019-cu ilin ilk ayları ölkədə xüsusən sosial sahədə həyata keçirilən və 3 milyon vətəndaşın rifahına birbaşa təsir göstərən tədbirlərlə əlamətdardır. Prezident İlham Əliyev bildirib ki, 2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir və inkişaf etmiş ölkəyə çevirməkdir, mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır.

Prezident İlham Əliyevin 2019-cu ildə sosial sahədə qəbul etdiyi mühüm qərarlar birdəfəlik ödəmə alacaq şəhid ailələrinin əhatə dairəsinin genişləndirilməsi ilə başladı. Ötən il aprelin 11-də keçirilən seçkilərdə inamlı qələbə qazanan cənab İlham Əliyevin növbəti prezidentlik müddətində imzaladığı 1 nömrəli fərman məhz şəhid ailələrinin sosial müdafiəsi ilə bağlıdır. 2018-ci il 19 aprel tarixli həmin fərmana əsasən qeyd olunan şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. Dövlət başçısının yanvarın 28-də imzaladığı fərmanla isə 11 min manat birdəfəlik ödəmə alacaq şəhid ailələrinin əhatə dairəsi daha da genişləndi.

***Ardı 8-ci səh.***

## VII Qlobal Bakı Forumu

# Azərbaycan səmərəli tərəfdaşlığın uğurlu platforması,

## Prezident İlham Əliyevin nitqi






- Əziz xanımlar və cənablar.

Əziz qonaqlar.

Əziz dostlar.

Azərbaycana xoş gəlmisiniz. Sizin hamınızı görməyimə çox şadam. Bu mühüm beynəlxalq tədbirdə bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edirəm. Mən, ilk növbədə, Nizami Mərkəzinin qlobal beynəlxalq instituta çevrilməsinə verdikləri əhəmiyyətli töhfəyə görə dünən görüş keçirdiyim Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri - xanım Vike-Freyberqaya, cənab Serageldinə və İdarə Heyətinin üzvlərinə təşəkkürümü bildirmək istərdim.

Qlobal Bakı Forumu qlobal gündəlikdə duran aktual məsələlərlə məşğul olan ən mühüm beynəlxalq platformalardan biridir. Əvvəlki forumların mövzuları qlobal məsələlərin bugünkü gündəliyini əks etdirir. Düşünürəm ki, bu, xarici siyasətlə bağlı məsələlərlə, - bu, yeni xarici siyasət adlandırılır, - məşğul olmaq üçün çox yaxşı seçimdir. Çünki son forumdan bəri, xüsusilə ölkələr arasında münasibətlərdə, dünyada təhlükəsizlik və proqnozlaşdırılabilmə ilə bağlı məsələlərdə çox şey dəyişib. Mən çox şadam ki, forumun çoxsaylı iştirakçısı var. Forumda 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. Qonaqlarımızın arasında 5 hazırkı prezident, 1 hazırkı baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət və hökumət başçısı, görkəmli siyasətçilər, vətəndaş cəmiyyətinin təmsilçiləri, jurnalistlər, alimlər, gənc liderlər var.

Bu gün bu zalda böyük intellektual potensial var, bu da, əslində, forumun əhəmiyyətini əks etdirir. Qlobal gündəlikdə çox sayda beynəlxalq tədbir, konfrans var. Lakin keyfiyyət iştirakçıların siyahısına, onların təcrübəsinə və intellektual potensialına görə ölçülür. Bu səbəbdən, mən düşünürəm ki, Qlobal Bakı Forumunun dünya xəritəsində nadir yeri var. Əminəm ki, qarşıdakı günlərdə müzakirə olunacaq məsələlər beynəlxalq münasibətlərin gələcəyi, dünyanın gələcəyi ilə bağlı qərar verənlərin diqqətini cəlb edəcək.

Azərbaycanın xarici siyasəti barədə danışarkən, mən deyərdim ki, o, çox dəyişməyib. Biz Azərbaycanın yeni xarici siyasəti barədə danışa bilmərik. Lakin sözsüz ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq. Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O, bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Ona görə də Azərbaycan sonuncu forumdan bəri xarici siyasət istiqamətləri ilə bağlı təşəbbüslərini davam etdirib. Düşünürəm ki, biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq. Əlbəttə ki, istənilən ölkə, o cümlədən Azərbaycan üçün qonşularla münasibətlərin qurulması əsas prioritetdir. Bu mənada, sonuncu forumdan bəri bizim əlaqələrimiz güclənib. Biz qonşularımızla qarşılıqlı maraqlara, qarşılıqlı hörmətə əsaslanan çox məhsuldar işçi münasibətlər qurmuşuq. Bu, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və investisiya sahələrində daha çox körpü qurmağa kömək edir. Bu səbəbdən, bizim qonşu ölkələrlə ənənəvi əlaqələrimiz regional təhlükəsizliyi təmin edir.

Regional təhlükəsizlikdən söhbət açarkən, biz, əlbəttə ki, Ermənistanla Azərbaycan arasındakı münaqişədən danışmalıyıq. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edir. Bu işğal nəticəsində Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ və ölkəmizin digər 7 rayonu işğal altındadır, bir milyondan çox qaçqın və məcburi köçkün işğaldan əziyyət çəkir. Xalqımız etnik təmizləməyə məruz qalıb. İşğal olunmuş ərazilərdəki bütün tarixi abidələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və bu, işğal olunmuş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərmiş ATƏT-in hesabatında öz əksini tapıb. Azərbaycan torpaqlarının işğalı beynəlxalq hüququn, əsas beynəlxalq təşkilatların müvafiq qətnamələrinin və qərarlarının kobud şəkildə pozulmasıdır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib və onlar Ermənistan tərəfindən yerinə yetirilmir. BMT Baş Assambleyası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı və digər təşkilatlar oxşar qətnamə və qərarlar qəbul ediblər. Onlar beynəlxalq hüquqa, ədalətə əsaslanır və münaqişənin sülh yolu ilə həlli üçün hüquqi baza yaradır. Status-kvo qəbuledilməzdir. Danışıqları təşkil etmək üçün mandata sahib olan ATƏT-in Minsk qrupu ölkələrinin prezidentləri dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və biz bunu tam dəstəkləyirik. Status-kvo dəyişməlidir və bunu etmək üçün Ermənistan öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa başlamalı, qaçqın və məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan yaratmalıdır.

Ermənistan hökuməti danışıqların formatını dəyişmək üçün cəhdlər edib və biz hələ də bu cəhdləri görürük. Bu, tamamilə qəbuledilməz və qeyri-effektivdir. Biz bunu danışıqlar prosesini əngəlləmək cəhdi hesab edirik. Bu cür düşünən tək biz deyilik. Şadıq ki, beynəlxalq təşkilatlar bu fikri paylaşır. Bir qədər əvvəl ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yaydılar və faktiki olaraq Ermənistana açıq mesaj göndərdilər ki, onların danışıqlar formatını dəyişdirmək cəhdləri qəbuledilməzdir. Ondan bir neçə gün əvvəl Avropa İttifaqının yüksək rütbəli rəsmiləri eyni bəyanatla çıxış etdilər. Danışıqlar formatı uzun illər ərzində işlənib hazırlanıb və onu dəyişmək üçün birtərəfli qaydada edilən istənilən cəhd danışıqlar prosesini əngəlləmək cəhdi kimi qiymətləndirilir və bütün məsuliyyət bunu etməyə çalışan tərəfin üzərinə düşür. Bu səbəbdən, birincisi, danışıqlar formatı dəyişdirilə bilməz və ikincisi, danışıqlar nəticəyönümlü olmalıdır, sadəcə, danışıqlar xatirinə olmamalıdır. Azərbaycan bu prosesi davam etdirməyə hazırdır və danışıqların nəticəsi olaraq bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. Ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə arasındakı balans BMT-nin Nizamnaməsində, Helsinki Yekun Aktında çox aydın şəkildə izah olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Ona görə də, münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Bizim xarici siyasət prioritetlərimiz, həmçinin beynəlxalq təşkilatlarla əlaqələri əhatə edir. Biz müxtəlif beynəlxalq təşkilatlar arasında körpülər yaradan müxtəlif təşəbbüslərdə fəal şəkildə iştirak edirik. İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan az sayda ölkələrdən biri olaraq biz bu iki təşkilat arasında daha çox tərəfdaşlıq qurmaq üçün bu imkandan istifadə edirik. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında İslam həmrəyliyinin gücləndirilməsi, bəzi üzv ölkələr arasında gərginliyin azaldılmasında mühüm rol oynayır. Biz səylərimizin nümayişi olaraq iki il bundan əvvəl IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirdik. Ondan iki il əvvəl Azərbaycan birinci Avropa Oyunlarını keçirən ölkə oldu. Təsəvvür edirsinizmi, biz iki il ərzində eyni şəhərdə həm Avropa Oyunlarını, həm də İslam Həmrəyliyi Oyunlarını keçirdik. Bu, əslində, bizim beynəlxalq arenadakı rolumuzu, ölkələri və sivilizasiyaları yaxınlaşdırmaq istiqamətində səylərimizi əks etdirir. Biz Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıqla bağlı bəyannamələr və razılaşmalar imzalamışıq və qəbul etmişik. Bu, üzv ölkələrin üçdəbiridir və həmçinin bizim Avropa ölkələri ilə fəal əməkdaşlığımızı nümayiş etdirir. Biz ötən il Avropa İttifaqı ilə əməkdaşlığımızın bütün əsas sahələrini əhatə edən, tərəfdaşlıq prioritetləri adlanan çox mühüm bir sənədi parafladıq. Bu sənəddə, xüsusilə, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli ilə bağlı məqam aydın əksini tapıb. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına tam dəstək ifadə olunur. Ona görə də, Ermənistanla münaqişəyə gəlincə, bir daha deməliyəm ki, bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin həllini bu prinsiplər əsasında görür. Münaqişənin həllinin yeganə yolu Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Azərbaycan müxtəlif ölkələrlə yaxın əməkdaşlıq imkanından istifadə edərək Bakı prosesinə start verdi. Ötən il biz Bakı prosesinin 10-cu ildönümünü qeyd etdik. Bu, bizim İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərini birgə toplantıya dəvət etməyimizlə başladı. Bu, çox uğurlu oldu və beləliklə, növbəti il biz daha bir görüş keçirdik və sonra, BMT tərəfindən dəstəklənən bu format Bakı prosesi adlandırıldı. Bu, 100-dən çox ölkəni əhatə edən həmin iki böyük beynəlxalq təşkilat arasında qarşılıqlı əlaqə və müzakirələrin yeganə formatıdır.

Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur. Azərbaycan nisbətən gənc müstəqil ölkədir. Lakin biz beynəlxalq ictimaiyyətdən çox güclü dəstək alırıq. Bunun sübutu olaraq, mən bir neçə il əvvəl Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini qeyd edərdim. Bu, onu göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı var. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi biz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində çox mühüm rol oynadıq. Biz, həmçinin qlobal təhlükəsizlik sahəsində rol oynayırıq. Biz sülhməramlı əməliyyatlarda iştirak edirik. Bu yaxınlarda biz Əfqanıstanda təhlükəsizliyi təmin edən hərbçilərimizin sayını artırdıq. Biz, həmçinin koalisiya qüvvələrini çox mühüm nəqliyyat və logistika dəstəyi ilə təmin edirik. Azərbaycanın üzvü olduğu Şimal paylaşdırma şəbəkəsi çox etibarlı təchizat marşrutudur. Bu, həm də müasir infrastruktura, xüsusilə nəqliyyata investisiyaların yatırılması sayəsində mümkün olub. Sonuncu qlobal forumdan sonra keçən dövrdə biz Xəzər dənizinin Azərbaycan sahilində böyük dəniz ticarət limanının açılışını etdik. Bu dəniz limanı böyük həcmdə - ilkin mərhələdə 15 milyon tondan 25 milyon tonadək yükləri nəql etmək qabiliyyətinə malikdir və ölkələri yaxınlaşdırmaq baxımından çox mühüm rol oynayır.

Xarici siyasətdən danışarkən, əlbəttə ki, bizim bu siyasətin mahiyyətinə ehtiyacımız var. Xarici siyasətimiz, siyasi səylərimiz olmadan Azərbaycanın artıq sahib olduğu güclü nəqliyyat əlaqələrini qurmaq mümkün olmazdı. Bizim ölkəmizi regional nəqliyyat mərkəzinə çevirməklə bağlı bir neçə il bundan əvvəlki hədəflərimiz artıq öz nəticələrini verir. Azərbaycan "Şərq-Qərb nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. 2017-ci ildə biz Gürcüstandan keçməklə Azərbaycan və Türkiyə arasında dəmir yolu xəttinin açılışını etməklə, Avropa dəmir yolu ilə Asiya dəmir yolunu birləşdirdik. Ötən il dəniz limanının açılışı bu nəqliyyat şəbəkəsinin daha bir elementidir. Biz artıq Asiya ölkələrindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik. Biz bu yaxınlarda artıq Əfqanıstanın təbliğ etdiyi Lapis-Lazuli dəmir yolu və Şərq-Qərb dəhlizi ilə fiziki əlaqə əldə etdik. Biz artıq yeni mənbələrdən yüklər qəbul edirik. Bu, təkcə iqtisadi mənfəət deyil, həm də ölkələr arasında əlaqə, qarşılıqlı bağlılıq və yaxın əməkdaşlıq deməkdir. Beləliklə, nəqliyyat sahəsi beynəlxalq əlaqələrin mühüm sektorudur və o, çox yaxşı tərəfdaşlıq ruhu yaradır.

Qlobal təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən daha bir sahə enerji sektorudur. Azərbaycan enerji təhlükəsizliyinə çox investisiya yatırır. Aparıcı enerji şirkətləri ilə bizim birgə layihələrimiz həm xalqımıza, ölkəmizə fayda verir, həm də Azərbaycanda, qonşu ölkələrdə on minlərlə iş yeri yaradır və onlar beynəlxalq tərəfdaşlığa gətirib çıxarır. Azərbaycan neft kəməri ilə Qara dənizi və Xəzər dənizini, dünyada ilk dəfə olaraq neft kəməri ilə Aralıq dənizi ilə Xəzər dənizini birləşdirdi. Hazırda, biz "Cənub qaz dəhlizi" adlanan böyük layihə üzərində işləyirik. O, Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşmiş kəmər sistemi vasitəsilə əlaqələndirir. Kəmərin uzunluğu 3500 kilometrdir və yekun mərhələdədir. Ötən ilin mayında biz "Cənub qaz dəhlizi"nin rəsmi açılışını etdik. Ötən ilin iyununda isə onun mühüm hissələrindən biri olan TANAP-ın-Trans-Anadolu Boru Kəmərinin açılışı oldu. Azərbaycan qazı artıq bu kəmər vasitəsilə nəql olunur və ümidvaram ki, gələn il layihə tam yekunlaşacaq. Bu, regionda ən böyük infrastruktur layihələrindən biridir. Qaz istehsalı və nəqlinə yatırılmış investisiyaların ümumi həcmi 40 milyard dollara yaxındır. Beynəlxalq maliyyə institutları bizə güclü dəstək verir və əlbəttə ki, korporativ vəsaitdən də istifadə olunur. Bu, enerji təhlükəsizliyi, enerji əməkdaşlığı və ölkələr arasında əməkdaşlıq layihəsidir. Bizim planlarımız bugünkü formatın hüdudlarından kənara çıxır. Biz artıq Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro kimi Balkan ölkələri ilə Anlaşma Memorandumu imzalamışıq. Ümidvaram ki, növbəti mərhələdə biz bu ölkələrlə həm də fəal əməkdaşlığa başlayacağıq. "Cənub qaz dəhlizi" layihəsinə bu və ya digər yolla qoşulmağı planlaşdıran ölkələrin coğrafiyası genişlənir. Bu, enerji və nəqliyyat təşəbbüslərinin geniş beynəlxalq əməkdaşlığa yol açdığını əyani şəkildə göstərir. Düşünürəm ki, biz enerji və nəqliyyat sektorlarında Asiya, Qafqaz, Avropa ölkələrini və Avropa İttifaqına üzv ölkələri əhatə edən beynəlxalq əməkdaşlığın yeni geniş formatını yaratmışıq. Bu, həqiqətən də qiymətli töhfədir və biz hələ bu prosesin başlanğıcındayıq. Çünki biz hələ icra mərhələsindəyik. Bütün bu layihələr həyata keçiriləndən sonra iqtisadi stimul, iqtisadi fayda olacaq, bu ölkələrdə on minlərlə iş yeri açılacaq və bu, ölkələri yaxınlaşdıracaq.

Çıxışımın əvvəlində qeyd etdim ki, Azərbaycanın xarici siyasəti müstəqildir və milli maraqlara əsaslanır. Bunun əsasında təkcə bizim siyasi iradəmiz deyil, həm də iqtisadi inkişafımız dayanır. Son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb. Biz Azərbaycanın əsas infrastruktur layihələrini tamamlamağa, maliyyə vəziyyətimizi əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa müvəffəq olduq. Xarici borcumuzun səviyyəsi çox aşağıdır, ümumi daxili məhsulun təxminən 19 faizinə bərabərdir və ehtiyatlarımız borcumuzdan 4-5 dəfə çoxdur. Beləliklə, Azərbaycanın maliyyə sabitliyi, iqtisadi inkişafı ölkəmiz üçün imkanlar yaratmaqla yanaşı, qonşu ölkələrə investisiya yatırmağa və daha çox körpü qurmağa imkan verir.

Düşünürəm ki, forumun gündəliyi çox məharətlə seçilib. Siz bu gün narahatlığa səbəb olan ən mühüm və aktual məsələlərə toxunacaqsınız. Mən tam əminəm ki, məhsuldar müzakirələriniz və tövsiyələriniz tərəfdaşlığın güclənməsinə və gərginliklərin azalmasına yol açacaq. Foruma uğurlar arzulayıram. Təşəkkür edirəm.



Əfqanıstan İslam Respublikasının Prezidenti **Məhəmməd Əşrəf Qani** bu mötəbər foruma dəvət olunduğuna görə Azərbaycan dövlətinin başçısı İlham Əliyevə minnətdarlığını bildirdi. Qeyd etdi ki, bu gün dünyada mühüm dəyişikliklər baş verməkdədir, təhlükəsizlik, ətraf mühit və digər problemlər öz həllini tapmalıdır, dünyada yeni xarici siyasət müəyyənləşdirilməlidir, dövlətlər və xalqlar arasında əməkdaşlıq genişləndirilməlidir.

Prezident Məhəmməd Əşrəf Qani dedi:

- Müəyyən tədbirlər görməliyik, yeni dünya quruluşu yaratmalıyıq. Eyni zamanda, bizim əsas ölkələrin baxışları yeni dünyanın əsasını təşkil etməlidir. Bilavasitə mənim qarşımda duran vəzifələrdən biri məhz budur. Biz Əl-Qaidənin və sovetlərin Əfqanıstana hücumundan sonra bu cür dekonstruktiv güclərin qarşısının alınması istiqamətində yeni bir şəbəkə yaratmışıq. Biz bu şəbəkə vasitəsilə transmilli terrorçu qruplara qarşı müəyyən mühafizə tədbirləri görürük. Beləliklə, biz Əfqanıstanı məhz bu yolla dünyanın ən əmin-aman ölkəsinə çevirmək istəyirik. Biz bu sahədə bütün dünya ölkələri ilə əməkdaşlıq etməyə hazırıq. Beləliklə, biz dünya iqtisadiyyatına müstəqil şəkildə töhfə vermək istərdik. Düşünürük ki, biz xüsusilə yeni yanaşma yolu ilə qarşımızda duran əsas vəzifələrin azı 70 faizini yerinə yetirəcəyik. Beləliklə də bu müharibə və yoxsulluğun qarşısının alınması istiqamətində səylərimizi əsirgəməyəcəyik. Düşünürəm ki, bu Forum dünya siyasətinə yeni elementlər gətirəcək və beynəlxalq əməkdaşlığı gücləndirəcək. Əlamətdar haldır ki, bu qlobal forumun mövzusu mücərrəd deyil, bu, dünyanın gələcəyinin konturlarını cızacaq.

Mən bu kürsüdən möhtərəm cənab Prezident İlham Əliyevə öz dərin minnətdarlığımı bildirmək istərdim. Həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, yüksək qonaqpərvərliyə görə Azərbaycan xalqına və hökumətinə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun. Təşəkkür edirəm.

* * *



Albaniya Prezidenti **İlir Meta** forumun yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. Diqqətə çatdırdı ki, dünya çox mühüm dəyişikliklərlə üzləşib. Xüsusilə Avropada təhlükəsizlik baxımından yaşanan çətinliklərə toxunan Albaniya Prezidenti həmin çətinliklərin ölkələrin birgə səyləri nəticəsində aradan qaldırılmasının mümkünlüyünü vurğuladı. İlir Meta Azərbaycan ilə əməkdaşlığın ölkəsi üçün faydalarından da danışaraq dedi:

- Biz bilirik ki, dünyada, eyni zamanda, enerji sahəsində də bir çox dəyişikliklər vardır. Albaniya strateji və tranzit bir ölkə rolunu oynamaqdadır. Misal üçün, Albaniya Azərbaycanın "Şahdəniz" yatağından Trans-Adriatik boru kəməri ilə gələn qazı digər Avropa ölkələrinə ötürməkdə çox böyük rola malikdir. Ümumiyyətlə, Albaniyanın Avropadakı rolu stratejidir. Digər qaz xətləri də ölkəmizdən keçməkdədir. Bu xətlər Monteneqro, Bosniya və Herseqovina və digər ölkələri birləşdirir. Bir sıra ölkələrin siyasi kursu İkinci Dünya müharibəsindən sonra 180 dərəcə dəyişmişdir. Albaniyanın məqsədi milli maraqlarını, regionumuzda stabilliyi təmin etməkdir.

Demokratiyaya gəldikdə deməliyəm ki, ölkəmiz sosial cəmiyyətin çiçəklənməsi istiqamətində səylər göstərməkdədir. Azərbaycan ilə qurulan tərəfdaşlığımız bu istiqamətdə göstərdiyimiz səylərə mühüm töhfə verməkdədir.

* * *



Sonra Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü **Şefik Caferoviç** çıxış etdi. Qonaq dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından Qlobal Bakı Forumunun əhəmiyyətini vurğulayaraq dedi:

- Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, belə bir forum keçirir. Bu forum bir çox ölkədən iştirakçıları bir araya gətirmişdir. Sizinlə birlikdə burada olmaq, hamımızı narahat edən məsələləri müzakirə etmək mənim üçün çox xoşdur.

Həqiqətən də çox böyük dəyişikliklərin baş verdiyi bir dövrdə yaşayırıq. Qarşımızda bir çox mürəkkəb məsələ vardır. Bu məsələlərdən biri də qeyri-müəyyənlikləri aradan qaldırmaqdır. Dünyada qlobal və regional təhlükələr mövcuddur, bunların öhdəsindən gəlmək tələb olunur. İndiki çətinliklər, sadəcə, yarandıqları yerlərlə bağlı deyil, fundamental dəyişikliklər tələb edir. Ümumiyyətlə, dünya nizamındakı dəyişikliklər vacib məsələlərdən biridir.

Heç bir ölkə bu çətinliklərin və problemlərin öhdəsindən təkbaşına gələ bilməz. Ona görə inteqrasiyanın vacibliyi göz qabağındadır və siyasətlər məhz buna görə hazırlanmalıdır. Hər bir ölkə üçün əsas məsələlərdən biri öz təhlükəsizliyinin təmin edilməsidir. Bunu ancaq qonşu ölkələrlə birlikdə və qlobal platformada təmin etmək mümkündür. Məhz buna görə də bizim ortaq qərarlara ehtiyacımız vardır.

Bu problemlərin öhdəsindən ancaq öz qüvvələrimizi və potensiallarımızı birləşərək gələ bilərik. Bunu nəzərə alaraq demək lazımdır ki, müasir təhdidlərə və təhlükələrə qarşı ortaq həll yollarının tapılması tələb olunur. Bunun əsası əlbəttə ki, ölkələrin suverenliyinin təmin edilməsi şərti ilə qarşılıqlı birgə fəaliyyətlərin hazırlanması və həyata keçirilməsidir.

# VII Qlobal Bakı Forumu

# qlobal təhlükəsizliyə töhfə verən regional liderdir





Moldova Prezidenti **İqor Dodon** çıxışında bildirdi ki, dünyada yeni çağırışlar, yeni risklər artmaqdadır. İstər qlobal, istərsə də regional səviyyələrdə təhlükəsizliyi təmin etmək üçün ölkələrin birgə səylərinə və əməkdaşlığına ehtiyacın olduğunu vurğulayan Prezident İqor Dodon dedi:

- Mən, ilk növbədə, möhtərəm Prezident İlham Əliyevə VII Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürümü bildirmək istərdim.

Xüsusilə vurğulamaq istəyirəm ötən illərdə istər qlobal, istərsə də regional səviyyələrdə təhlükəsizlik tam təmin olunmayıb. Ümumiyyətlə, biz bu gərginliyin azalmasını müşahidə edə bilmirik. Yeni çağırışlar, yeni risklər artmaqdadır. Moldova Respublikası istəyir ki, müxtəlif ölkələr arasındakı gərginlik aradan qalxsın. Biz bu gün və sabah burada yeni xarici siyasət məsələləri haqqında danışacağıq. Əminəm, bu zaldakı liderlərin əksəriyyəti də düşünür ki, hər şeyin başında milli maraqlar dayanmalıdır. Əlbəttə ki, heç də asan dövrdə yaşamırıq və Moldovanın olduğu regionda da problemlər çoxdur. Bunların öhdəsindən necə gəlmək, onları necə həll etmək olar? Bilirsiniz ki, Moldova artıq sovetlər dağıldıqdan sonra MDB-nin üzvü olmuşdur, daha sonra Avropa İttifaqı ilə assosiativ müqavilə bağladıq və vizasız gediş-gəliş imkanı əldə etdik. Daha sonra biz Avropa İqtisadi Birliyinin üzvü olduq. Bunlar Moldovaya nə verir - Avropa İttifaqı ilə, eyni zamanda, MDB ölkələri ilə rahat ticarət aparmaq imkanı. Amma digər məsələ təhlükəsizliklə əlaqədardır. Biz özümüzü hər hansı bir hərbi təşkilatın üzvü kimi görürükmü? İstər Qərbdə olsun, istər Şərqdə. Milli təhlükəsizliyin təmin edilməsi baxımından biz öz statusumuzu, neytral mövqeyimizi qoruyub saxlayacağıq və biz bunun sayəsində öz məqsədlərimizə nail olmaq istəyirik. Bu məqsədlər isə, ilk növbədə, sərhədlərimizin toxunulmazlığını və sosial-iqtisadi inkişafı təmin etməkdir. Bu neytral mövqeyimizin dünyada da qəbul olunmasını istəyirik.

* * *



Sonra söz Monteneqro Prezidenti **Milo Cukanoviçə** verildi. Prezident Milo Cukanoviç dedi:

- Zati-aliləri.

Xanımlar və cənablar.

Mən bu nüfuzlu forumda birinci dəfə iştirak edirəm. Monteneqronu forumda bizim əvvəlki prezident təmsil etmişdir ki, o da hazırda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvüdür.

Azərbaycan xüsusilə son illər ərzində çox vacib beynəlxalq forumlar təşkil edir və bununla əlbəttə ki, qlobal və regional sabitliyə öz töhfəsini verir. Əlbəttə ki, bu, gözəl ölkənin və xalqın töhfəsi deməkdir. Monteneqro da Azərbaycanın dost ölkəsidir. Düşünürük ki, biz burada çox vacib məsələni müzakirə edirik.

Monteneqro Prezidenti ölkələrin siyasətinin multikultural olmasının əhəmiyyətinə nəzər saldı, hər bir ölkədə sabitliyin və əmin-amanlığın təmin edilməsinin vacibliyini vurğulayaraq dedi:

- Dünya siyasətinin böyük məqsədlərinə ancaq o halda çata bilərik ki, biz öz vətəndaşlarımız üçün sabitliyi və sülhü təmin edək. Bu, əlbəttə ki, dünyanın yeni siyasətinin başlıca məqsədi olmalıdır. İstər Monteneqroda, istərsə də hər hansı bir digər ölkədə olsun. Biz belə qəbul edirik ki, xarici siyasətimiz həssas olmalıdır və bütün dəyişikliklərə reaksiya verməlidir, öz mexanizmlərini təkmilləşdirə bilməlidir.

* * *



Bolqarıstanın Baş naziri **Boyko Borisov** dünyada hökm sürən münaqişələrdən danışdı və diqqətə çatdırdı ki, münaqişə edən ölkələrin əldə olunan razılaşmalara, imzalanan sənədlərə riayət etmələri vacibdir. Ölkəsinin qonşularla dostluq münasibətlərindən danışan Boyko Borisov Azərbaycan ilə əməkdaşlığa xüsusi önəm verdiklərini bildirərək dedi:

- Bolqarıstan qonşuları olan ölkələrlə və ya Avropa İttifaqı ilə münaqişə yaşamamışdır. Bu gün biz çox təhlükəsiz şəraitdə yaşayırıq. Bütün qonşularımızla gözəl münasibətlər yaradılıb. Biz çox gözəl bir qonşuluq şəraitində, qarşılıqlı hörmət zəminində bütün etnik qruplara sülh içində yaşamaq imkanı yaratmışıq.

Mən də Azərbaycanla çox gözəl münasibətlərimizin olduğunu bildirmək istərdim. Bu gözəl münasibətlərin əsasını qoyan möhtərəm Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Birinci xanıma da xüsusi minnətdarlıq düşür. Çünki Bolqarıstanda tarixi kilsə və abidələrin bərpasına birinci xanımın bilavasitə töhfəsi olmuşdur. Biz bu töhfəni yüksək qiymətləndiririk.

Biz də artıq qaz dəhlizinə qoşulmaq barədə düşünürük. Bu dəhlizlə nəql olunan qazın bir hissəsinin məhz Bolqarıstanda qalmasında çox maraqlıyıq. Düşünürük ki, Azərbaycan qazı Bolqarıstanın iqtisadiyyatının çiçəklənməsinə töhfə verəcək. Bolqarıstan-Türkiyə-Bosniya və Herseqovina-Monteneqro arasında münasibətləri xüsusi qeyd etmək istərdim. Biz bunu "Balkan qovşağı" adlandırırıq. Beləliklə, bizim kifayət qədər müştərək planlarımız mövcuddur. İstəməzdim uzun-uzadı danışım.

Azərbaycan Respublikasının Prezidentinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə minnətdarlığımı bildirmək istərdim ki, belə bir gözəl tədbiri ərsəyə gətiriblər. Düşünürəm ki, gələcəkdə də biz belə bir forumda bərabər şəkildə iştirak edəcəyik. Hörmətli həmkarlarım, dostlarım, dəvətinizə görə təşəkkür etmək istərdim.

* * *



Daha sonra İtaliyanın Azərbaycandakı səfiri **Auqusto Massari Prezident Sercio Mattarellanın** müraciətini forum iştirakçılarına çatdıraraq dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti.

Hörmətli forum iştirakçıları, hörmətli dostlar.

İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın müraciətini oxumaq mənim üçün çox böyük şərəfdir. Bu, VII Qlobal Bakı Forumu üçün xüsusi hazırlanmış müraciətdir.

İtaliya Prezidenti cənab Sercio Mattarellanın müraciətində deyilir: "Hörmətli həmsədrlər və forum iştirakçıları. Məni bu foruma dəvət etdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Təəssüflər olsun ki, mən forumda iştirak edə bilmədim. Amma buna baxmayaraq, mən sizin hamınıza çox düzgün seçim etdiyinizə görə və düzgün deviz seçdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz görürük ki, hər il bu forumda mədəniyyətlərin dialoqu mövzusu və onun ətrafında müzakirələr aparılır. Hər dəfə bu forumda qarşılıqlı anlaşmanın vacibliyi vurğulanır. Biz bilirik ki, həm milli kimliyin, həm də digər ölkələr və ümumiyyətlə, xalqlar arasında münasibətlərin güclənməsi ən vacib məsələlərdən biridir.

Bu möhtəşəm forum məhz Bakıda, çox gözəl şəhərdə təşkil olunub. Cənab Prezident İlham Əliyev öz nitqi ilə bu forumu daha da şərəfləndirir, forumda müxtəlif məsələlərdən - həm uğurlardan, həm də dünyanın qarşılaşdığı problemlərin həlli yollarından söhbət açılır. Eyni zamanda, müzakirələrdə dünyanın cavabdehliyi haqqında danışılır. Ən əsası da odur ki, bu məsələlərin həllində həm hökumətlərin, həm də ictimaiyyətin iştirakının vacibliyi vurğulanır. Bu fürsətdən istifadə edərək mən forumun işinə uğurlar arzu edirəm. Sizi ən xoş arzularımla salamlayıram. Sağ olun".

* * *



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri xanım **Karol Krofts** Birləşmiş Krallığın Baş naziri Tereza Meyin müraciətini oxuyaraq dedi:

- Zati-aliləri cənab Prezident.

- Xanımlar və cənablar.

Burada olmaq, bu forumda iştirak etmək, həmçinin Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin müraciətini sizin üçün oxumaq mənim üçün böyük şərəfdir.

Baş nazir Tereza Meyin müraciətində deyilir: "Mən VII Qlobal Bakı Forumunun iştirakçılarını salamlayıram. Xüsusilə cənab Prezident İlham Əliyevə evsahibliyi etdiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bu forumda dünyanı maraqlandıran müxtəlif məsələlər müzakirə olunur. Böyük Britaniya ilə Azərbaycan çox güclü əlaqələr qurmuşdur. Hələ 1992-ci ildə diplomatik əlaqələr yaradılmışdır. Mən cənab Prezidentlə müzakirələrdə iştirak etmişəm. Eyni zamanda, strateji enerji əməkdaşlığına dair məsələləri müzakirə etmişik. Bunların məqsədi qarşılıqlı təhlükəsizliyi təmin etməkdir. Sadəcə, indiki dövr üçün deyil, gələcək 10 illiklər boyunca bunun edilməsi məqsədimizdir. Bir çox sahələrdə əməkdaşlığımız davam edir. Biz bu əməkdaşlığı daha da möhkəmləndirməyə davam edirik. Ən vacibi də odur ki, onun təməli çox möhkəmdir. Bu bünövrə məhz qarşılıqlı hörmətə əsaslanır. Bu forum dünyadakı müxtəlif ölkələr arasında sülhün və əməkdaşlığın təşviqinə yönəlmişdir. Mən bu istiqamətdəki bütün fəaliyyətləri dəstəkləyirəm. Forumun işinə uğurlar arzulayıram".

* * *



BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru **Miryana Eqqer** BMT-nin Baş katibi Antonio Quterreşin foruma müraciətini oxuyaraq dedi:

- Cənab Prezident.

Xanımlar və cənablar.

Hörmətli iştirakçılar.

Sizin qarşınızda çıxış etmək və Baş katib Antonio Quterreşin bu foruma müraciətini çatdırmaq mənim üçün çox böyük şərəfdir.

İlk növbədə, VII Bakı Qlobal Forumunun yüksək səviyyədə təşkilinə görə cənab Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm.

Cənab Antonio Quterreşin məktubunda deyilir: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə VII Qlobal Bakı Forumunun təşkili üçün təşəkkür edirəm.

Dünyamız bir paradoksla qarşılaşır: çətinliklər bir-biri ilə əlaqəli olduğu halda onların həllinə yönəlmiş səylər əlaqəsizdir. Ekoloji təhlükə və silahlı münaqişələrdən tutmuş artan bərabərsizlik və dözümsüzlüyə qarşı çoxtərəfli əməkdaşlığa hər zamankından daha çox ehtiyac var. Lakin, sadə dildə desək, bu, kifayət deyil. Biz insanların qorxu və narahatlıqlarına cavab verən həll yollarını səfərbər etdiyimizi və hamıya yararlı olan ədalətli qloballaşmanı yaratdığımızı göstərməliyik. Birləşmiş Millətlər Təşkilatı hər gün sülhməramlı fəaliyyət, humanitar yardım, insan hüquqlarının qorunması, dayanıqlı inkişafın təşviqi məsələləri ilə məşğul olur.

Gördüyümüz bütün yaxşı işləri məhv edə biləcək bir potensial təhlükə mövcuddur - iqlimin korlanması. İqlim sürətlə dəyişir. Onu yavaşıtmaq üçün göstərdiyimiz səylər yetərli deyil. Bu qlobal problemin həlli məqsədilə səyləri artırmaq üçün sentyabr ayında Nyu Yorkda iqlim hərəkatı ilə bağlı sammit təşkil edəcəyəm. Həyəcan təbilini çalmaq və iqlim hərəkatı imkanlarını vurğulamaq işində sizin dəstəyinizə güvənirəm.

Digər qurumlar, regional təşkilatlar, vətəndaş cəmiyyəti, özəl sektor və başqa tərəfdaşlarla çoxtərəfli əməkdaşlıq çox zəruridir. Bu tərəfdaşlıq ruhunda dialoqa sadiqliyinizi alqışlayır və məhsuldar müzakirələr keçirməyinizi arzu edirəm".

* * *



Sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-Freyberqa** çıxış edərək dedi:

- Zati-aliləri, cənab Azərbaycan Respublikasının Prezidenti.

Hörmətli dövlət və hökumət başçıları, diplomatlar və qonaqlar.

Mən bilirəm ki, sizin müxtəlif titullarınız vardır. Hamınızı salamlayıram. İlk növbədə, cənab Prezidentə evsahibliyi və himayədarlıq etdiyinə görə Beynəlxalq Şura adından təşəkkürlərimi bildirmək istəyirəm. İlbeil görürük ki, bu forumun çox böyük nəticələri vardır. Çox sağ olun, cənab Prezident, həqiqətən də Sizin dəstəyinizin rolu çox böyük olub. Buna görə Sizə minnətdarlığımızı bildiririk. Eyni zamanda, buraya gələnlərin hamısına təşəkkürlərimizi bildirmək istəyirəm. Onlar da Azərbaycanın nailiyyətlərini burada müşahidə edə bilərlər.

Azərbaycan bir çox beynəlxalq tədbirlərə evsahibliyi edir. Dünyanın bir çox ölkəsindən gələn qonaqları qəbul edir. Bu forum yeni xarici siyasət mövzusuna həsr olunmuşdur. Burada biz müxtəlif məsələləri müzakirə edirik, çox aktual məsələlərə toxunuruq, dünyanın indiki vəziyyətini nəzərdən keçiririk. Fransızca bir deyim var: "Bir çox şeyin dəyişməsinə baxmayaraq, yenə də bir çox şey eyni qalmaqdadır". Təəssüflə qeyd etmək lazımdır ki, dünya siyasətində də belə bir hal baş verməkdədir. Bəzən biz görürük ki, köhnə həllər yenə də dəyişməz olaraq qalır. Biz forumun əvvəlində bir çox problemlər haqqında eşitdik. Azərbaycan Prezidenti bu problemlər haqqında danışdı. Azərbaycanın bir sıra əraziləri işğal olunmuşdur. Biz bu səhər xarici siyasətin yeni balansa çatması və buna nail olunmağın vacibliyi haqqında eşitdik. Yeni siyasətin milli maraqlara uyğun olması tələbini də eşitdik. Vacib olan odur ki, biz dini və ya ideoloji fərqlərə əsaslanaraq Tövratda da qeyd edildiyi kimi, ayrılmayaq. Yəni, biz görürük ki, dünyada bir çox münaqişələr mövcuddur. Ölkələrin iqtisadi vəziyyətinə nəzər yetiririk, iqlimin necə dəyişdiyini müşahidə edirik. Biz görürük ki, bu, sadəcə, bir ölkəyə təsir göstərmir, bu, bir çox ölkəyə və regiona təsir edir.

Xanımlar və cənablar, çıxış edən dövlət başçıları da bunu qeyd etdilər ki, bütün yeni aspektlər və yeni mühit bizdən çox böyük iş, eyni zamanda, çox böyük intellekt tələb edir. Yeni və köhnə problemlər yenə də mövcuddur. Onları həll etmək üçün bir çox beynəlxalq qurumlar da işləyir. Bizim məqsədimiz bunları həll etməkdir. Düşünürük ki, gələcəkdə biz bunları həll edə biləcəyik. Buna görə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzi həm qurumlara, həm də şəxslərə yeni mükafat təsis edib və onu təqdim edir. Bu il iki nəfər bu mükafata layiq görülüb.

* * *

Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirildi.







Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra **Vike-Freyberqa** dedi:

- Mən istərdim İsmail Serageldini dəvət edim ki, o da təqdimat mərasimində iştirak etsin. İlk mükafat Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə verilir. O, beynəlxalq sülhə verdiyi töhfəyə görə mükafatlandırılır.

Mükafat Prezident Əşrəf Qaniyə təqdim olundu.

Prezident Məhəmməd **Əşrəf Qani** dedi:

- Mən uşaq ikən Nizami Gəncəvinin şeirlərini əzbər bilirdim. Demək istəyirəm ki, mən bundan böyük mükafat gözləmirdim.

**Vayra Vike-Freyberqa:**

- İkinci namizədimiz Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennedidir. Bu mükafat Kerri Kennediyə onun rəhbərlik etdiyi fondun insan hüquqlarına, gənc liderlərin təhsilinə, həssas uşaqlara hörmətlə yanaşmasına görə verilir.

Mükafat Kerri Kennediyə təqdim olundu.

**Kerri Kennedi** dedi:

- Təşəkkür edirəm. Sizin qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir. Mən Bakıya dünən gecə gəlmişəm. Nizami Gəncəvinin adını daşıyan bu mükafatı almaqdan çox məmnunam. Nizami deyirdi ki, hər bir yeni ölkəyə gedəndə o ölkənin mədəniyyətini öyrənin. Bu, elə bir yanaşmadır ki, insanı nəticə etibarilə müdrikliyə gətirib çıxarır. Digər mədəniyyətlərlə tanış olmaq insanın müdrikliyinin rəmzidir. Burada müxtəlif ölkələrin, müxtəlif mədəniyyətlərin nümayəndələri iştirak edirlər. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi kimi bir təşkilat bizi bir araya gətirib. Bu təşkilat daha yaxşı gələcəyin qurulması üçün öz səylərini əsirgəmir. Bu fürsətdən faydalanaraq özümü çox qürurlu hesab edirəm.

* * *

Forum işini panel iclasları ilə davam etdirib.

# VII Qlobal Bakı Forumu

# *İlham ƏLİYEV:* "Qlobal Bakı Forumu dünya intellektuallarının beynəlxalq təşkilatına çevrilib"





Martın 14-də VII Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

Dövlət başçısı ziyafətdə iştirak edən yüksək səviyyəli qonaqlarla görüşdü.

Ziyafətdə bir sıra ölkələrin dövlət və hökumət başçıları, eləcə də sabiq dövlət və hökumət başçıları, tanınmış siyasi və ictimai xadimlər iştirak ediblər.

Əvvəlcə xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu artıq yeddinci dəfədir baş tutur. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən budəfəki forumda qlobal siyasətin dəyişməsində böyük güclərin rolu, davamlı inkişaf çağırışları, təhlükəsizlik naminə Orta Şərq əməkdaşlığı, müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu və digər mühüm məsələlər müzakirə edilir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti **Vayra Vike-FREYBERQA** ziyafətdə çıxış edərək dedi:

- Zati-aliləri, cənab Prezident.

Prezidentin qonaqları, Zati-aliləri xanımlar və cənablar.







Biz VII Bakı Qlobal Forumuna yüksək notda başladıq. Bu forum cənab Prezidentin himayədarlığı ilə keçirilir. Bugünkü forumda cənab Prezidentin nitq söyləməsi bizə böyük şərəf vermişdir. Hesab edirəm ki, hamımız Azərbaycanda bizə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycanda əvvəllər heç vaxt olmayan sizlərin bir çoxu bunu böyük məmnunluqla kəşf etmisiniz. Lakin bu gün Bakı forumunda yenidən iştirak etmək üçün Azərbaycana gələn çoxlu dostlarımız var. Prezident İlham Əliyevə cansağlığı, xoşbəxtlik, xalqının lideri kimi davamlı uğurlar arzu edirik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin komandası adından xüsusi minnətdarlıq əlaməti olaraq biz Prezidentə çox xüsusi bir hədiyyəni təqdim etmək istəyirik. Ukraynalı rəssam sizin də sevdiyiniz dahi şair Nizami Gəncəvinin "Xəmsə"sindən bir əsər yaratmışdır. İstərdik ki, bu hədiyyəni bizim bütün komandamız adından Sizə təqdim edək.

Hədiyyə dövlət başçısına təqdim edildi.

Sonra Prezident **İlham ƏLİYEV** çıxış edərək dedi:

- Belə dəyərli hədiyyəyə görə çox sağ olun xanım Prezident, cənab Serageldin. Bir daha verdiyi töhfələrə görə həmsədrlərə, bizim inanılmaz həmsədrlərə, xanım Prezident Vike-Freyberqaya və cənab İsmayil Serageldinə təşəkkürümü bildirmək istəyirəm. Bu səhər bunun haqqında danışdım və hər gün bunun haqqında danışa bilərəm, çünki bu, həqiqətdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bir çox marağa səbəb olan, bir çox intellektualları cəlb edən aparıcı qlobal beynəlxalq təşkilata necə çevrilməsini görmək möhtəşəmdir. Bizim forumumuzun intellektual səviyyəsi ildən-ilə artır. Bu tədbirdə lap əvvəldən iştirak edən insanlar kimi, biz əlbəttə ki, bunu söyləyə bilərik. Bu gün bu forumun dünya xəritəsində çox mühüm yeri var və forum hələ də inkişaf prosesini yaşayır. Bir neçə gün bundan əvvəl İdarə Heyətinin üzvləri ilə müzakirə etdiyimiz kimi, bu forumun daha da genişlənmək potensialı var. Bu forumun dinamizmi var, bu forumun enerjisi var. Bu gün bizim aramızda olan gənc liderlər bu foruma əlavə enerji verirlər. Bu zala daxil olmadan öncə dostlarımızla bu forumun xüsusi özəlliyinin nədən ibarət olduğunu müzakirə edirdik. Mən dedim ki, forumu həqiqətən cəlbedici və məhsuldar edən panellərdə çox qızğın diskussiyaların aparılmasına, fikirlərin toqquşmasına, fikir ayrılıqlarına baxmayaraq, biz, eyni zamanda, birliyi də görürük. Biz kollektiv işi görürük. Forumda müntəzəm iştirak edən insanlar, dövlət başçıları, sabiq dövlət başçıları var. Eyni zamanda, Azərbaycana ilk dəfə səfər edən yeni dostlarımız var. Hesab edirəm ki, bu birlik ruhu forumumuzun ən əsas özəlliklərindən biridir. Əminəm ki, Azərbaycana ilk dəfə səfər edənlər ölkəmizə yenidən qayıtmağı qərarlaşdıracaqlar. Biz həmişə yeni dostları görməyə və köhnə dostlarımızı qarşılamağa şadıq. Beləliklə, hamınıza uğurlar arzulayıram. Bizimlə bir arada olduğunuz üçün çox sağ olun. Forum həmişə bizim hamımız üçün dinamik, intellektual bir platforma olacaq. Çox sağ olun.

VII Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə Azərbaycanın incəsənət ustalarının ifasında konsert proqramı təqdim olundu.

Xatırladaq ki, Qlobal Bakı Forumu artıq ənənəvi mötəbər tədbirə çevrilib. Bir çox mühüm beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübə toplayan Azərbaycan Qlobal Bakı Forumuna da uğurla evsahibliyi edir. Bu cür tədbirlər ölkəmizin beynəlxalq birliyə təqdim olunması baxımından da vacib əhəmiyyət daşıyır.

# Azərbaycan Əfqanıstanda sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunmasına böyük töhfələr verir







Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edən Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev ilə Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani arasında təkbətək görüş oldu.

Təkbətək görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən iqtisadi əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi.

Dövlət başçısı Əfqanıstan Prezidentinə Azərbaycana səfərinə və VII Qlobal Bakı Forumunda iştirakına görə minnətdarlığını bildirdi. Bu səfərin ölkələrimiz arasında iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlıq üçün yeni fürsətlər yaradacağını qeyd etdi, həmçinin ölkələrimizin nəqliyyat sahəsində əməkdaşlığının ikitərəfli əlaqələrin inkişafı baxımından yeni imkanlar yaratdığını vurğuladı. Dövlət başçıları arasında mütəmadi qarşılıqlı görüşlərin keçirilməsinin əhəmiyyəti qeyd olundu.

Görüşdə prezidentlər tərəfindən Azərbaycanın Əfqanıstanda sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunmasına verdiyi töhfələr yüksək qiymətləndirildi.

Prezident Məhəmməd Əşrəf Qani, ilk növbədə, Lapis-Lazuli nəqliyyat layihəsinə verdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü ifadə etdi və nəqliyyat sahəsində ölkələrimizin əməkdaşlığını yüksək qiymətləndirdi.

Əfqanıstan Prezidenti əlaqələrin inkişafı baxımından enerji, nəqliyyat, tikinti, iqtisadiyyat, ticarət, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın vacibliyinə toxundu, bu sahələrdə əlaqələrin inkişafı üçün böyük perspektivlərin olduğunu dedi.

Sonra prezidentlər İlham Əliyevin və Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədləri imzalandı.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə Əfqanıstanın Dəmir Yolları İdarəsi "ARA" arasında əməkdaşlıq haqqında Niyyət Memorandumu"nu "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və Əfqanıstanın maliyyə naziri vəzifəsini icra edən, Prezidentin infrastruktur və texnologiyalar üzrə müşaviri Mohammad Hamayun Qayumi imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Əfqanıstanın maliyyə naziri vəzifəsini icra edən, Prezidentin infrastruktur və texnologiyalar üzrə müşaviri Mohammad Hamayun Qayumi imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev və Əfqanıstanın informasiya və mədəniyyət nazirinin vəzifəsini icra edən Hasina Safi imzaladılar.

## *İlir Meta, Albaniya Prezidenti:* “Azərbaycanın Albaniyada daxili qazlaşdırma sistemini yaratmasında maraqlıyıq”



Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edən Albaniya Prezidenti İlir Meta ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev Albaniya Prezidenti İlir Metaya Azərbaycana səfərinə və VII Qlobal Bakı Forumunda iştirakına görə minnətdarlığını bildirdi. Forumun beynəlxalq miqyasda iştirakçılarının sayının artdığını bu tədbirin nüfuzunun yüksəlməsinin göstəricisi kimi dəyərləndirdi. Bu forumun beynəlxalq məsələlərlə yanaşı, ikitərəfli münasibətlərin müzakirəsi üçün geniş imkanlar yaratdığını dedi.

Dövlət başçısı TAP layihəsinə toxunaraq qeyd etdi ki, tikinti işləri uğurla gedir və son mərhələdədir. Prezident İlham Əliyev vurğuladı ki, bu layihə həm də ölkələrimizi və xalqlarımızı birləşdirir. Prezident İlham Əliyev Azərbaycanın Albaniya ilə ikitərəfli münasibətlərə önəm verdiyini dedi.

VII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunan Albaniya Prezidenti İlir Meta bu tədbirin beynəlxalq əməkdaşlığa töhfə verdiyini bildirdi. İkitərəfli münasibətlərin inkişafına verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. O, ölkəmizdə böyük dəyişikliklərin şahidi olduğunu dedi.

TAP layihəsinə toxunan Albaniya Prezidenti də işlərin uğurla getdiyini təsdiq etdi. Prezident İlir Meta Azərbaycanla müxtəlif sahələrdə, xüsusilə turizm sahəsində əlaqələrin genişləndirilməsində, həmçinin Azərbaycanın Albaniyada daxili qazlaşdırma sisteminin yaradılmasında ölkəsinin maraqlı olduğunu bildirdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdikləri, bir-birini dəstəklədikləri vurğulandı. Qarşılıqlı ticarətin genişləndirilməsi, ixrac-idxal imkanlarının araşdırılması, biznes qurumları arasında əməkdaşlığın qurulması və digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

## Bosniya və Herseqovina Azərbaycana həyata keçirdiyi humanitar layihələrə görə minnətdardır



Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə VII Qlobal Bakı Forumunda iştirak etdiyinə görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçə təşəkkürünü bildirən Prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrin müzakirə edilməsi baxımından çox yaxşı bir fürsət olduğunu dedi. Dövlət başçısı ölkələrimiz arasında siyasi əlaqələrin dinamik inkişaf etdiyini vurğuladı.

Foruma dəvətə görə minnətdarlığını ifadə edən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç dost ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu və qarşılıqlı maraq əsasında inkişaf etdirildiyini bildirdi. Azərbaycanın Bosniya və Herseqovinaya verdiyi dəstəyi və ikitərəfli əməkdaşlığı, eləcə də Azərbaycanın bu ölkədə həyata keçirdiyi humanitar layihələri yüksək qiymətləndirdi. Bosniya parlamentinin üzvü olan zaman Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi, Xocalı soyqırımının qınanması ilə əlaqədar sənədin qəbul olunmasında şəxsən iştirak etdiyini deyən Rəyasət Heyətinin üzvü Prezident İlham Əliyevi Bosniya və Herseqovinaya rəsmi səfərə dəvət etdi.

Dövlət başçısı dost ölkə olan Bosniya və Herseqovinanın parlamentində Xocalı soyqırımı ilə əlaqədar qətnamənin qəbul edilməsinə görə təşəkkürünü bildirdi. Hələ keçən əsrin 70-ci illərində Bakı və Sarayevonun qardaşlaşmış şəhərlər olduğunu deyən Prezident İlham Əliyev şəhərlər arasında əməkdaşlığın, insanlararası təmasların və mədəni-humanitar əlaqələrin inkişafının vacibliyini qeyd etdi.

## *İqor Dodon, Moldova Prezidenti:* “VII Qlobal Bakı Forumu beynəlxalq və regional məsələlərin müzakirəsi baxımından vacib platformadır”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Moldova Prezidenti İqor Dodon ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev VII Bakı Qlobal Forumunda iştirak etdiyinə görə Moldova Prezidenti İqor Dodona təşəkkürünü bildirdi. Dövlət başçısı dedi ki, VII Qlobal Bakı Forumu beynəlxalq və regional məsələlərin müzakirəsi baxımından çox mühüm və önəmli bir platformadır. Eyni zamanda, bu forum bizə ikitərəfli əlaqələrimizin inkişaf perspektivlərini müzakirə etmək üçün imkan yaradır. Prezident İlham Əliyev Moldova Prezidentini seçkilərdə əldə etdiyi qələbə münasibətilə təbrik etdi.

Moldova Prezidenti İqor Dodon VII Qlobal Bakı Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidentinə təşəkkür etdi. Bildirdi ki, bu forum beynəlxalq və regional məsələlərin müzakirəsi baxımından vacib platformadır.

Görüşdə müxtəlif sahələr üzrə ikitərəfli əlaqələrin inkişafına dair ətraflı fikir mübadiləsi aparıldı. Həmçinin hökumətlərarası müştərək komissiyanın ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin inkişafı baxımından vacib əhəmiyyəti vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi və bir-birinə dəstək göstərdiyi qeyd olundu.

## *Milo Cukanoviç, Monteneqro Prezidenti:* “Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin inkişafına böyük dəstək verir”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 14-də Monteneqro Prezidenti Milo Cukanoviçlə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Monteneqro Prezidenti foruma dəvətə və tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, bu tədbir beynəlxalq müstəvidə duran məsələlərin müzakirəsi baxımından mühüm platformalardan biridir. Azərbaycanla əlaqələri yüksək qiymətləndirən Monteneqro Prezidenti birgə həyata keçirən layihələrin ikitərəfli münasibətlərin inkişafından xəbər verdiyini dedi.

Prezident İlham Əliyev Azərbaycan ilə Monteneqro arasında çox sıx siyasi-iqtisadi əlaqələrin olduğunu və birgə uğurlu layihələrin həyata keçirildiyini vurğuladı. Dövlətimizin başçısı “Cənub qaz dəhlizi” üzrə Məşvərət Şurasının iclasında Monteneqronun iştirakının da təqdirəlayiq olduğunu, bu layihənin həyata keçirilməsinin ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracağını dedi. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanda müxtəlif nəqliyyat layihələrinin həyata keçirildiyini diqqətə çatdırdı. Qeyd olundu ki, Azərbaycanın nəqliyyat sisteminin Avropa ölkələri ilə əlaqələndirilməsi və xüsusilə də Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətə başlaması ölkələrimiz arasında nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanlar yaradır. Dövlət başçısı ölkələrimiz arasında turizm, qaz və nəqliyyat sahələrində əməkdaşlığın inkişaf etdirilməsi baxımından böyük imkanların və perspektivlərin olduğunu da dedi.

Monteneqro Prezidenti qeyd etdi ki, Azərbaycanı Monteneqroda dost ölkə hesab edirlər və Prezident İlham Əliyevin ölkələrimiz arasında münasibətlərin inkişafına verdiyi dəstək çox yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev Azərbaycanda da Monteneqroya böyük hörmətlə yanaşıldığını və Monteneqro ilə əlaqələrimizə mühüm əhəmiyyət verildiyini bildirdi.

Görüşdə, həmçinin ölkələrimiz arasında müqavilə-hüquq bazasının gücləndirilməsinə və digər sahələrin inkişafına dair geniş müzakirələr aparıldı.

## Azərbaycanla Bolqarıstanın əlaqələri dinamik inkişaf edir



Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bolqarıstanın Baş naziri Boyko Borisovun VII Qlobal Bakı Forumunun işində iştirakını yüksək qiymətləndirdi. Dövlət başçısı Boyko Borisovun ötən il Azərbaycana səfərlərini xatırlayaraq bu səfərlərin ölkələrimiz arasındakı münasibətlərə yaxşı töhfə verdiyini, bu gün əlaqələrimizin dinamik inkişaf etdiyini vurğuladı. Bildirdi ki, bu gün bizim yaxşı siyasi əməkdaşlıq potensialımız mövcuddur. Prezident İlham Əliyev Bolqarıstanın və Azərbaycanın hər zaman bir-birini dəstəklədiyini dedi. Azərbaycan dövlətinin başçısı “Cənub qaz dəhlizi”nin Məşvərət Şurasında Bolqarıstanın da iştirak etdiyini və ümumi işə töhfəsini qeyd etdi. Prezident İlham Əliyev hər iki tərəfin yüksək səviyyəli nümayəndələrinin qarşılıqlı səfərlər həyata keçirdiyini və bu səfərlərin əlaqələrin inkişafına təkan olduğunu vurğuladı. İqtisadi sahədə də Azərbaycanla Bolqarıstan arasında yaxşı potensialın olduğunu deyən dövlət başçısı Bolqarıstanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə dəstəyini yüksək qiymətləndirdi.

Bolqarıstanın Baş naziri Boyko Borisov ölkələrimiz arasında dostluq münasibətlərindən danışaraq dünyada sülhə, anlaşmaya istiqamətlənən VII Qlobal Bakı Forumunun əhəmiyyətini vurğuladı və tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi, SOCAR-ın Bolqarıstandakı fəaliyyəti barədə də məlumat verildi.

## Azərbaycan ilə Rumıniya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçalla görüşü olub.

AZƏRTAC xəbər verir ki, xanım Ana Birçal Rumıniya Prezidentinin və Baş nazirinin salamlarını dövlət başçısına çatdıraraq bildirdi ki, bu görüş ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı üçün yeni imkanlar və fürsətlər yaradır. O qeyd etdi ki, bu il Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlığın qurulmasının 10 illiyi qeyd olunur.

Dövlət başçısı, öz növbəsində, onun salamlarının Rumıniyanın Prezidentinə və Baş nazirinə çatdırılmasını xahiş etdi. Prezident İlham Əliyev qeyd etdi ki, xanım Ana Birçalın Azərbaycan ilə Rumıniya arasında əlaqələrin inkişafına verdiyi şəxsi töhfələr və dəstək ölkəmizdə yüksək qiymətləndirilir. Dövlət başçısı dedi ki, ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi, xüsusilə də iqtisadi-ticari əməkdaşlığın təşviqi üçün böyük imkanlar var.

Ana Birçal bildirdi ki, keçən il hökumətlərarası müştərək komissiyanın iclası çox məhsuldar olub və bu komissiya ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı baxımından da mühüm rol oyanır.

Görüşdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrinə toxunuldu və ölkələrimizin bir-birini dəstəkləməsi yüksək qiymətləndirildi. Həmçinin bu günlərdə Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan xarici işlər nazirlərinin görüşünün keçirildiyi və burada da nəqliyyat sahəsinin inkişaf etdirilməsinin vacib məsələ olduğu qeyd edildi.

Dövlət başçısı “Cənub qaz dəhlizi”nin Məşvərət Şurasında Rumıniyanın iştirakı məsələsinə də toxundu.

Ana Birçal Rumıniyanın Avropa İttifaqı Şurasına sədrlik etdiyi dövrdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişlənməsini yaxından dəstəklədiyini bildirdi.

# VII Qlobal Bakı Forumu

## VII Qlobal Bakı Forumu işini panel iclasları ilə davam etdirib

### Birinci iclasda "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu: Çin, ABŞ, Rusiya və Avropa İttifaqı" mövzusunda geniş müzakirələr aparılıb





Azərbaycan paytaxtında "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən VII Qlobal Bakı Forumu martın 14-də açılış mərasimindən sonra işini panel iclasları ilə davam etdirib.

AZƏRTAC xəbər verir ki, forumun birinci panel iclası "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu: Çin, ABŞ, Rusiya və Avropa İttifaqı" mövzusuna həsr olunub.

CNN-in aparıcısı, siyasi analitik **Farid Zakariyanın** moderatorluğu ilə keçən paneldə çıxış edən Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti **Vu Hailonq** forumun təşkilinə verdiyi dəstəyə görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib. O deyib ki, Çinin iqtisadiyyatı son illər daha sürətlə inkişaf edir. Çinin Avropa İttifaqı ilə iqtisadi əlaqələri milyardlarla dollar dəyərindədir. ÇXR dünyaya sülh yayır və sabit iqtisadiyyatın inkişaf etdirilməsində maraqlıdır.

VII Qlobal Forumun açılışında iştirakına və dərin məzmunlu nitqinə görə dövlət başçısı İlham Əliyevə minnətdarlığını çatdıran Latviyanın sabiq Prezidenti **Vayra Vike-Freyberqa** keçmiş Sovet İttifaqının dağılmasından sonra digər dövlətlər kimi, Latviyanın da bir çox problemlərlə qarşılaşdığını deyib. Lakin Latviya xalqı bu çətinliklərə baxmayaraq, özünü toplamağı bacardı. Bu gün Latviya sabit iqtisadiyyata malik dövlətdir.

Norveçin keçmiş Baş naziri **Kyel Maqne Bondevik** müasir Avropa cəmiyyətinin təşəkkülündən və bu proses zamanı qarşılaşdığı problemlərdən danışıb. Qeyd edib ki, Avropa İttifaqı bu problemlərin həlli istiqamətində mühüm addımlar atsa da, hələ də bəzi məsələlər öz həllini gözləyir. Bunun üçün isə Avropa ölkələri birlikdə fəaliyyət göstərməlidirlər. Kyel Maqne Bondevik VII Qlobal Bakı Forumunun əhəmiyyətini vurğulayıb, tədbir çərçivəsində səmərəli müzakirələrin aparılacağına əmin olduğunu bildirib.

Robert Kennedi İnsan Hüquqları Fondunun prezidenti **Kerri Kennedi** ABŞ-ın dünyada sülhün təmin edilməsindəki rolu barədə fikirlərini paylaşıb. Qeyd edib ki, daha azad, daha çiçəklənən dünyanın qurulmasında Amerikanın xüsusi fəaliyyəti mövcuddur. Lakin bir dövlət bütün dünyada sülhü bərqərar edə bilməz. Buna görə də bu məsələdə bütün dövlətlərin səyi vacibdir. O, dünyada sülhün bərqərar olmasına Azərbaycan dövlətinin verdiyi töhfələrin ABŞ-da yüksək qiymətləndirildiyini qeyd edib.

Belə bir mühüm tədbirdə iştirakına görə Azərbaycan rəhbərliyinə minnətdarlıq edən Avstriyanın keçmiş Federal Kansleri **Verner Faymann** deyib ki, insanlar kimi, dövlətlərin də fərqli demokratiya anlayışları var. Bu gün Avropa bütün dünyada demokratiya məkanı kimi tanınır. Lakin bununla kifayətlənmək olmaz. Çünki demokratiya daim üzərində işləməli, təkmilləşdirilməsi lazım olan amildir.

## Forumun ikinci paneli "Davamlı inkişaf çağırışları" mövzusuna həsr olunub



VII Qlobal Bakı Forumu çərçivəsində ikinci panel iclası "Davamlı inkişaf çağırışları" mövzusuna həsr olunub. AZƏRTAC xəbər verir ki, panel iclası Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru **Ceffri Saksın** moderatorluğu ilə keçib. O bildirib ki, dünya iqtisadiyyatı hazırda dayanıqlı inkişafı təmin etmir. İqtisadi artım birbaşa sosial ədalətə söykənmir. Dünyada gedən proseslər ətraf mühitə böyük təsir göstərir. Ətraf mühitdən nəzarətsiz qaydada istifadə olunur və bu da iqlim dəyişikliyini nəzarətdə saxlamağa imkan vermir, biomüxtəlifliyə mənfi təsir göstərir. Okeanlarda suyun səviyyəsi artır, hava çirklənir, bu da qidaların keyfiyyətinə təsir göstərir. Bu baxımdan, dünya ölkələri dayanıqlı inkişafa önəm verməlidirlər.

2009-2017-ci illərdə BMT-nin İnkişaf Proqramının administratoru olmuş **Helen Klark** qeyd edib ki, beynəlxalq səviyyədə əməkdaşlıq çox vacibdir. Ölkələr bu haqda düşünməlidirlər. Burada bir çox amillər mövcuddur. Sağlamlıqla bağlı məsələlərə diqqət yetirilməlidir. Daha təmiz yanacaqlara keçmək məcburiyyətindəyik. Gəlir nöqteyi-nəzərindən də insanlar arasında qeyri-bərabərlik var. Bütün bu problemlərin, istər yoxsulluq, istər təhsil, istərsə də digər problemlərin həlli üçün əməkdaşlıq labüddür. Birlikdə çalışsaq, vətəndaşların sülh, əmin-amanlıq və rifah naminə arzularını reallaşdırmaq və planetimizi qorumaq şansı əldə edəcəyik.

Kanada Baş nazirinin Avropa İttifaqı və Avropa məsələləri üzrə xüsusi elçisi, bu ölkənin Almaniyadakı səfiri **Stefan Dion** bildirib ki, yaxın gələcəkdə içməli su ilə əlaqədar ciddi problemlər yarana bilər. Dünya okeanlarına, dənizlərə atılan plastik tullantıların çəkisi artıb. Bu da sularda canlı orqanizmlərin məhv olmasına gətirib çıxarıb. Bu sahədə çox ciddi addımlar atılmalı, bununla bağlı investisiyalar yatırılmalıdır. Əks təqdirdə, bizim itirdiklərimiz çox olacaq. Gələcək nəsillərin taleyi iqlim dəyişikliyindən asılı olacaq. Ona görə də atmosferə zəhərli tullantıların atılmasının azaldılmasına çalışmalıyıq.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Büronun direktoru **Miryana Eqqer** qeyd edib ki, 2030-cu ilin gündəminə baxsaq, faktlar bizə göstərir ki, biz bütün sahələrdə inkişafa nail olmalıyıq. Yaxın 10 ildə əsas diqqəti iqlim dəyişikliklərinə, ətraf mühitin qorunmasına yönəltməliyik.

Sloveniyanın sabiq Prezidenti **Danilo Türk** təmsil etdiyi regionun inkişaf trendləri barədə danışıb, mövcud olan problemlərdən söhbət açıb.

## Forumun üçüncü panel iclasında "Bu, qloballaşmanın sonudurmu?" sualı ətrafında çıxışlar olub



Martın 14-də VII Qlobal Bakı Forumu çərçivəsində keçirilən üçüncü panel iclasında "Bu, qloballaşmanın sonudurmu?" mövzusunda müzakirələr aparılıb.

Gürcüstanın Baş nazirinin sabiq müavini **Eka Tkeşelaşvilinin** moderatorluğu ilə keçən paneldə çıxış edən Polşanın sabiq Baş naziri **Marek Belka** bildirib ki, ölkəsi Avropa İttifaqına qoşulduqdan sonra iqtisadi baxımdan faydalanıb. Qloballaşmanın siyasi qərarlar əsasında mövcud olmadığını deyən sabiq Baş nazir əlavə edib ki, bu, texnoloji bir prosesdir. Qloballaşmanın sona yaxınlaşmasını demək düzgün deyil. Bunun qarşısını almaq mümkün deyil. Müxtəlif ölkələr qloballaşmadan fərqli şəkildə istifadə edirlər.

Bolqarıstanın sabiq Prezidenti **Rosen Plevneliyev** Sovet İttifaqının dağılmasından sonra ölkəsində demokratiyanın bərqərar olduğunu bildirib. O əlavə edib ki, qloballaşma prosesindən razıdır. Bolqarıstanın müstəqillik əldə etdikdən sonra iqtisadiyyatını inkişaf etdirdiyini deyən sabiq dövlət başçısı ölkəsində həyata keçirilən islahatlardan danışıb. O vurğulayıb ki, qloballaşmadan xilas olmaq mümkün deyil. Bu gün dünyanı hörümçək toru kimi ağuşuna alan internet bəşəriyyəti bir əldə saxlayır. Dünyanın istənilən yerində gedən prosesləri sosial media vasitəsilə izləmək mümkündür. Qloballaşma vasitəsilə dövlətlər yeni iqtisadi alətlərdən ortaqlı istifadə edirlər.

Ekvadorun keçmiş Prezidenti **Rosalia Arteaqo Serrano** Latın Amerikasının müxtəlifliyə malik bir coğrafiya olduğunu deyib. Qeyd edib ki, burada siyasi, iqtisadi və humanitar böhran mövcuddur. Qlobal trendin davam etdiyini deyən sabiq Prezident əlavə edib ki, bu gün Avropada cərəyan edən istənilən böhran Latın Amerikasına da öz təsirini göstərir.

Rasizmə Qarşı Avropa Şəhərləri Koalisiyasının prezidenti **Benedetto Zakkirol** qloballaşmanın müsbət və mənfi məqamlarından söz açıb. O, dövlət rəhbərlərinin qlobal məsələlərə münasibət bildirməli olduqlarını söyləyib. Vurğulayıb ki, bütün səylər müsbət istiqamətə cəmləşdirilməlidir.

Livanın sabiq Baş naziri **Fuad Siniora** isə qeyd edib ki, bu gün dünya qloballaşmanın müsbət tərəflərindən faydalanmaqla mənfi tərəflərindən də əziyyət çəkir. Bu gün miqrasiya axınlarına qarşı vacib addımlar atılmalıdır, insanların həyat şəraitləri yaxşılaşdırılmalı, onlara kömək göstərilməlidir. Dünyada ksenofobiya, millətçilik, şovinizm kimi mənfi cərəyanlara qarşı mübarizə aparılmalıdır.

Mavritaniyanın sabiq Prezidenti xanım **Ameenah Gurib** qeyd edib ki, dünyada hökm sürən böhran hər bir insana təsir edir, hər kəs işini itirir. Bu da ciddi sosial problemlərə gətirib çıxarır.

İtaliyalı senator Ettore Liçeri bildirib ki, qloballaşmada insanların düşüncə tərzi dəyişir. İnsanlar yeni yerlər görmək istəyirlər. Bu, insanları yaxınlaşdırır.

Türkiyə parlamentinin sabiq sədri **Cəmil Çiçək** qeyd edib ki, qloballaşma dünyanın müxtəlif yerlərində fərqli şəkildə başa düşülür. Yaxşı tərəfdən baxdıqda qloballaşma insanlara çox şey qazandırıb. Digər tərəfdən, qloballaşma dünyanın siyasi gündəmini dəyişir, yeni siyasi sosial mühit formalaşdırır.

* * *

VII Qlobal Bakı Forumunun panel iclasları müzakirələrlə davam edib, suallar cavablandırılıb.

## TASS Agentliyi Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərinin yekunlarına dair geniş informasiya təqdim edib

Rusiyanın TASS İnformasiya Agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfərinin yekunlarına dair geniş informasiya təqdim edib.


ТАСС

Итогом визита Мехрибан Алиевой в Париж стали новые договоренности о партнерстве

ПАРИЖ, 13 марта. /ТАСС/. Первый вице-президент Азербайджана Мехрибан Алиева завершила в среду свой официальный визит во Францию, ознаменовавшийся новыми договоренностями об укреплении взаимного сотрудничества. Во время трехдневного пребывания во французской столице она встретилась с ведущими политиками, представителями делового мира, деятелями науки и культуры.

AZƏRTAC xəbər verir ki, agentliyin Paris bürosunun hazırladığı materialda səfər çərçivəsində ikitərəfli əməkdaşlığa dair bir sıra mühüm sənədlərin imzalandığı qeyd olunur. Bildirilir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın aparıcı siyasi, elm və mədəniyyət xadimləri, iş adamları ilə görüşlər keçirib.

Yazıda deyilir: "Mehriban Əliyevanın Parisə səfəri xüsusi diqqət mərkəzində olub. Ötən günlər ərzində o, Fransa Senatının sədri Jerar Larşe və Milli Assambleyasının sədri Rişar Ferran ilə danışıqlar aparıb. Birinci vitse-prezident həmçinin mədəniyyət naziri Frank Riesterin müşayiəti ilə Orsey muzeyində olub".

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransanın birinci xanımı Brijit Makron ilə görüşünü AZƏRTAC-a istinadla işıqlandıran agentlik yazır ki, tərəflər Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə ediblər. Söhbət zamanı ailə-qadın, gender bərabərliyi, təhsil, ətraf mühitin qorunması və digər məsələlərlə bağlı müzakirələr aparılıb, Bakıda Fransız Liseyinin fəaliyyətinin məmnunluq doğurduğu qeyd olunub, Şərqdə hüquq elminin ilk dəfə Azərbaycanda tədris edildiyi bildirilib. Mehriban Əliyevanın rəhbərliyi ilə müxtəlif dövrlərdə Fransada keçirilən mədəniyyət tədbirlərinin əhəmiyyəti vurğulanıb. Agentlik diqqətə çatdırır ki, Fransada Azərbaycanın böyük iqtisadi potensiala malik olduğu qeyd edilir. Azərbaycan bazarında 59 Fransa şirkəti fəaliyyət göstərir. İki ölkə arasında elm və mədəniyyət sahələrində də əlaqələr uğurla inkişaf edir.

## *Hikmət HACIYEV:* "Minsk qrupunun həmsədrlərinin son bəyanatı məhz Ermənistana ünvanlanıb"

ATƏT-in Minsk qrupunun həmsədrlərinin son bəyanatı ilə əlaqədar Azərbaycan Respublikasının mövqeyi ifadə olundu.



Belə ki, bu bəyanatda əks olunan fikirlərin bir qismi Azərbaycan Respublikasının mövqeyini əks etdirir və biz hesab edirik, bu bəyanat məhz Ermənistana ünvanlanmış bir bəyanatdır. Onun ünvan sahibi məhz Ermənistan Respublikasıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə martın 14-də VII Qlobal Bakı Forumunda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib.

Şöbə müdiri bildirib ki, danışıqlarda hər hansı şərtin qoyulması qəbuledilməzdir və danışıqlar olduğu şəkildə davam etdirilir. Bəyanatda, həmçinin qeyd olunur ki, aqressiv ritorika əsasında fikirlərin səsləndirilməsi də doğru deyil. Bundan başqa, həmsədrlər bəyanatda münaqişənin həlli ilə bağlı mərhələli həll prinsiplərini qeyd ediblər. Burada vurğulanır ki, Azərbaycan torpaqları işğaldan azad edilməli, məcburi köçkünlər geri qaytarılmalıdır. Bu, Helsinki Yekun Aktında da göstərilib. Xalqların öz müqəddəratını təyinetmə prinsipi dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməlidir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusuna gəldikdə isə Azərbaycan hər zaman ərazi bütövlüyü çərçivəsində bu məsələni müzakirə etməyə hazırdır. Burada da Helsinki Yekun Aktının əsas prinsiplərinə istinad olunmalıdır.

Ermənistan tərəfinin danışıqların formatını dəyişdirmək iddialarının əsassız olduğunu qeyd edən Hikmət Hacıyev bildirib ki, görüşlər də görüş naminə deyil, nəticəyönümlü olmalıdır.

## *Prezident İqor DODON:* "Moldova ilə Azərbaycan arasında çox yaxşı münasibətlər mövcuddur"

"Moldova ilə Azərbaycan arasında çox yaxşı ikitərəfli əlaqələr, o cümlədən iqtisadi, diplomatik münasibətlər qurulub".

AZƏRTAC xəbər verir ki, bu sözləri Moldova Prezidenti İqor Dodon VII Qlobal Bakı Forumu çərçivəsində jurnalistlərə açıqlamasında bildirib.

Prezident xatırladıb ki, ölkələrimiz arasında bir sıra sazişlər imzalanıb. Moldova və Azərbaycan beynəlxalq miqyasda, həmçinin MDB çərçivəsində keçirilən tədbirlərdə fəal əməkdaşlıq edir.

İqor Dodon vurğulayıb ki, Moldovada yeni hökumət formalaşdırılandan sonra Azərbaycan-Moldova hökumətlərarası komissiyasının iclası keçirilə bilər.

Əməkdaşlığın inkişaf perspektivlərindən danışan dövlət başçısı deyib ki, Moldovanın regiondakı imkanlarını, eləcə də Avropa İttifaqı və MDB ölkələri ilə azad ticarət haqqında sazişlərə malik olduğunu nəzərə alaraq, bir çox maraqlı layihələr həyata keçirmək mümkündür.

## *Rosen PLEVNELİYEV:* "Qlobal Bakı Forumunun əhəmiyyəti ildən-ilə daha da artır"

"VII Qlobal Bakı Forumunda iştirak etməkdən çox məmnunam. Sürətlə inkişaf edən Azərbaycanın belə bir tədbirə evsahibliyi etməsi, dostluq şəraitində və səmimi mühitdə keçən foruma xeyli sayda iştirakçının qatılması çox sevindiricidir. Eyni zamanda, bu forumda həm hazırkı, həm də sabiq dövlət başçılarının iştirakı onun əhəmiyyətini daha da artırır. Bu səbəbdən iştirakçıların sayı ildən-ilə artmaqda davam edir".

AZƏRTAC xəbər verir ki, bu sözləri VII Qlobal Bakı Forumunda iştirak edən Bolqarıstanın keçmiş Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü Rosen Plevneliyev deyib.

Dünyadakı hazırkı siyasi vəziyyəti şərh edən Bolqarıstanın keçmiş Prezidenti bu baxımdan forumun əhəmiyyətinə toxunub. "Dünyada münaqişələrin, terror aktlarının və digər problemlərin artdığı bir dövrdə yeni bir siyasətə ehtiyacın olduğunu görürük. Bu siyasət, fikrimcə, ikitərəfli müstəvidə deyil, məhz hərtərəfli əməkdaşlıq və dostluq mühitində əlaqələrin qurulmasına, problemlərin həlli yollarının bu müstəvidə axtarılmasına əsaslanmalıdır. Bu baxımdan, bu forumun əhəmiyyəti çox yüksəkdir. Çox şadam ki, biz forumda bir araya gələrək dünyanı narahat edən ən aktual problemləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırıq", - deyə Rosen Plevneliyev qeyd edib.

# *Yeni kitab:* "Akademik Ramiz Mehdiyev tariximizin xanlıqlar dövrünə sənədlər işığında nəzər salır"

## Tarixçilər üçün yol xəritəsi ola biləcək bu dəyərli əsər həm də tarixə münasibəti dəyişməyə çağırışdır

"Tarix keçmişi, bu günü və sabahı bir-birinə möhkəm tellərlə bağlayan bir keçid, körpüdür. Keçmişi bilmədən bu günə və gələcəyə keçmək qeyri-mümkündür. Keçmişimizi öyrənmək üçün ilk addım kimi tarixə, onun fəlsəfəsinə və təyinatına olan münasibətimizi dəyişməli, anlayışların zahirindən daha çox, onların daxilini görməyə, anlamağa vərdiş etməliyik". AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yenicə çapdan çıxmış "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabında yer alıb.



### Xanlıqlar dövrünün siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində mühüm elmi addım

Akademik Ramiz Mehdiyevin bu kitabı Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində atılmış mühüm elmi addımdır. Ümumilikdə 22 orijinal sənədin daxil edildiyi toplu xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan sanballı tədqiqat işidir. Akademik xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir, həmin tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirir. Nəticədə müqayisəli və hərtərəfli elmi təhlil metodu əsasında tarixşünaslığımızda ilk dəfədir ki, xanlıqlar dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə dəyərləndirilir.

Müəllif tədqiqatların nəticəsi olaraq bu qənaətə gəlir ki, xanlıqlar dövrü Azərbaycan dövlətçiliyinin və xalqının taleyində oynadığı rol baxımından tariximizin ən mühüm mərhələlərindən birini təşkil edir. Məhz bu dövrdə Azərbaycan dövlətçiliyi mərkəzləşmə prinsipindən məhrum olur. Vaxtilə Səfəvi şahlarının, xüsusən Şah İsmayıl Xətainin və Nadir şahın hərbi dühası və siyasi məharəti hesabına yaradılan, Azərbaycan türklərinin titul xalq statusunda idarə etdikləri böyük bir coğrafiyada irili-xırdalı onlarca feodal dövlətin meydana gəlməsi siyasi böhranla yanaşı, böyük iqtisadi və mədəni tənəzzülə aparıb çıxarır. Xanlıqlar dönəmini Azərbaycan üçün aktuallaşdıran başqa bir amil isə xalqımızın məhz həmin siyasi dövrün səhvləri ucbatından ikiyə bölünməsi və bu günə qədər də parçalanmış vəziyyətdə yaşamağa davam etməsi ilə bağlıdır. Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal olunması, Qacarların bütün cəhdlərə baxmayaraq, onları geri qaytara bilməməsi, nəhayət, imzalanan Gülüstan və Türkmənçay müqavilələri indiyədək mövcud olan reallığın mühüm tarixi səbəbləridir.

Bütün hallarda tarix olduğu kimi yazılmalıdır və bu, tarixçilərin əsas missiyasıdır. "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı bu baxımdan tarixşünaslığımıza çox dəyərli töhfədir və öz mötəbərliyi ilə ilk baxışda diqqəti çəkir.

### Azərbaycan dilində ilk dəfə işıq üzü görən 22 sənəd və tarixçilər üçün yol xəritəsi

Azərbaycan oxucusuna ana dilində ilk dəfə təqdim edilən 22 sənəd arasında Qacar şahlarının Azərbaycan xanlarına məktubları, həmçinin xanların o dövrdə Rusiya komandanlığı ilə yazışmaları özündə tarixi həqiqətləri əks etdirir. Fətəli şahın 1796-cı ilin noyabrında bütün Tiflis əhalisinə ünvanlandığı fərman, yaxud İstanbuldakı İran səfirliyinin ermənilərə sığınacaq verilməsi barədə Xarici İşlər Nazirliyinə məktubu, Cavad xanın Knyaz Sisianova cavab məktubu və digər sənədlər həmin dövrün real mənzərəsinə aydınlıq gətirmək baxımından böyük əhəmiyyət kəsb edir. Təqdim edilən sənədlər müvafiq şərh və izahlarla müşayiət olunur.

Akademik Ramiz Mehdiyev yeni kitabı tarixçi alimlər üçün yol xəritəsi də sayıla bilər. O, bu sahənin mütəxəssislərinə çağırış edərək yazır: "Tarixçilərimiz, filosoflarımız, ədəbiyyatşünaslarımız, mədəniyyətşünaslarımız onu da unutmamalıdırlar ki, keçmişin irsindən qorxmağa, yaxud ehtiyatlanmağa lüzum yoxdur. Onu olduğu kimi qəbul edib öyrənmək, müsbət tərəfləri və qüsurlarını obyektiv şəkildə göstərmək və ədalətli qiymətləndirmə əsasında ictimaiyyətə ötürmək lazımdır. Tarixi mirasla işləyərkən, əslində, tamam başqa bir məsələdən - hansısa siyasi-ideoloji səbəblərdən, yaxud təəssübkeşlik ucbatından ört-basdır etməyə çalışdığımız və ya mahiyyətini təhrif edərək çatdırdığımız faktların sonradan aşkara çıxarıldığı zaman xalqda, cəmiyyətdə yaradacağı məyusluqdan, ruh düşkünlüyündən və psixoloji sarsıntıdan ehtiyatlanmaq lazımdır".

Kitabda türkiyəli tarixçi F.Sümər, iranşünas və şərqşünas alimlər M.S.İvanov, K.E.Bosvort, Y.Krımski və başqalarının xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilir.

### Tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur

Əsərdə xanlıqlar dövrünün hadisələrinin müasir dövrlə əlaqələndirilməsi daha bir mühüm məziyyət kimi diqqəti cəlb edir. Müəllif yazır ki, xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında mövcud olan kədərli oxşarlıqlardan daha biri isə torpaqlarımızın itirilməsi ilə bağlıdır. Əgər xanların özbaşınalığı və separatçı davranışları Şimali Azərbaycanın çarizm tərəfindən işğalı və 1828-ci il Türkmənçay sazişinin müddəalarına əsasən İran ermənilərinin Qarabağa, Naxçıvana və İrəvana köçürülməsi ilə yekunlaşmışdısa, ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyimiz vəziyyət Ermənistanın öz havadarlarının birbaşa dəstəyi sayəsində Dağlıq Qarabağı, həmçinin onun ətrafındakı 7 rayonu qəsb etməsi ilə nəticələndi. Bu həm də onu sübut edir ki, tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur.

Akademik bu qənaətə gəlir ki, Azərbaycan xanları vaxtilə birləşib ümumi düşmənə qarşı vahid cəbhədən çıxış edə bilsəydilər, böyük ehtimalla torpaqlarımızın bu qədər asanlıqla və qısa zamanda işğalı da mümkün olmazdı.

Kitabda Ağa Məhəmməd şah Qacar, Abbas Mirzə Qacar, Fətəli şah Qacar, Qarabağ xanı İbrahimxəlil xan, Gəncə xanı Cavad xan, Şəki xanı Səlim xan, general Pavel Sisianov, birinci və ikinci Rusiya-İran müharibələri, həmçinin Kürəkçay müqaviləsi barədə verilən məlumatlar oxucuya həmin dövrün mühüm şəxsiyyətləri və hadisələrinə dair yığcam məlumatlar çatdırır.

Akademik Ramiz Mehdiyevin tədqiqatları, dərin məntiqə söykənən fikir və mülahizələri, dəyərli tövsiyələri, həmçinin təqdim etdiyi qiymətli sənədlər xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmağa imkan yaradacaq. Bununla yanaşı, Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və ədalətli baxışın formalaşmasına təkan verəcək.

Kitab həm peşəkar tarixçilər və mənbəşünaslar, həm də Azərbaycan tarixi ilə maraqlanan oxucular üçün nəzərdə tutulur.

# Azərbaycan və Belarusun istintaq orqanları terrorçuluğa qarşı birgə mübarizə aparacaq

Belarus İstintaq Komitəsinin sədri İvan Noskeviçin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib. Səfərin məqsədi Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının İstintaq Komitəsi arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsidir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 14-də Belarus Respublikasının İstintaq Komitəsinin nümayəndə heyəti Fəxri xiyabana gəlib, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzüb, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilib.

Qonaqları səmimi salamlayan baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafında Azərbaycan və Belarus dövlətlərinin liderləri İlham Əliyev və Aleksandr Lukaşenkonun müstəsna xidmətlərini, ölkə rəhbərlərinin başçılığı ilə nümayəndə heyətlərinin çoxsaylı qarşılıqlı səfərlərinin əhəmiyyətini xüsusi qeyd edib. Bildirilib ki, məhz bu münasibətlər ölkələrimizin daha da yaxınlaşması, hər iki respublikanın müxtəlif dövlət təsisatları, o cümlədən prokurorluq və istintaq orqanları arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafı yolunda böyük stimul olub. Bu əlaqələr çərçivəsində 2018-ci ilin noyabrında "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Belarus Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"in imzalanması ölkələrimizin prokurorluq və istintaq orqanları arasında münasibətlərin məzmunca yeni müstəviyə qaldırılmasında mühüm rol oynayıb.

Görüşdə baş prokuror son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması və digər məsələlər barədə qonaqlara ətraflı məlumat verib.

Belarusun Azərbaycanla hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini deyən İvan Noskeviç iki ölkənin istintaq orqanları arasında münasibətlərin dərinləşməsi üçün böyük perspektivlərin olduğunu bildirərək, qarşılıqlı səmərəli əlaqələrin daha da genişlənməsində maraqlı olduğunu vurğulayıb.

Müzakirələrin nəticəsi olaraq iki dövlət orqanı arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən "Əməkdaşlıq haqqında saziş" imzalanıb.

Saziş cinayətkarlıq və terrorçuluğa qarşı mübarizə, xüsusən də onun mütəşəkkil formaları, korrupsiya, iqtisadiyyat və yüksək texnologiyalar sahəsində cinayətlər və cəmiyyət üçün ciddi təhlükə yaradan digər cinayətlərin qarşısının alınmasında birgə əməkdaşlığı, informasiya və təcrübə mübadiləsini, hüquqi yardım və digər sahələri əhatə edir. Saziş mövcud münasibətlərin yeni səviyyəyə qaldırılması, ölkələrimizin tərəfdar olduğu beynəlxalq əməkdaşlığa dair sənədlərin icra olunmasının ikitərəfli səviyyədə təsdiqlənməsi, tərəflər arasında qarşılıqlı etimadın bir daha bəyan edilməsi və bir-birinin milli qanunvericiliyinə hörmətin ifadə olunması baxımından xüsusi əhəmiyyətə malikdir.

Belarus nümayəndə heyəti Baş Prokurorluğun tarix muzeyi, Azərbaycan-Belarus münasibətlərinə həsr olunmuş ekspozisiyalarla tanış olub. Qonaqlara Azərbaycan dövləti, onun hüquq sistemi, ölkə başçısının rəhbərliyi ilə aparılan islahatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən xüsusi hazırlanmış guşə təqdim edilib.

Belarus nümayəndə heyəti daha sonra Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində olub. Baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev qonaqlara prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan islahatlar, Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat verib.

Nümayəndə heyəti 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olub.

Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Belarus İstintaq Komitəsinin sədri İvan Noskeviç korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. O, korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Nümayəndə heyətinin üzvlərinin çirkli pulların yuyulması ilə mübarizə istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər və prokurorluq orqanları tərəfindən bu qəbildən olan cinayət işləri üzrə ibtidai araşdırmaların aparılması sahəsindəki fəaliyyətə dair sualları ətraflı cavablandırılıb.

Görüşdə korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Sonra qonaqlar Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində olub. Nümayəndə heyətinə idarədə istintaq edilən sülh və insanlıq, şəxsiyyət, dövlət hakimiyyəti əleyhinə, iqtisadi və digər sahələrdə törədilən ağır və xüsusilə ağır cinayətlərin istintaqı ilə bağlı ətraflı məlumat verilib. İ.Noskeviç kriminalistik işin təşkili, eləcə də "Elektron cinayət" və "Elektron sənəd dövriyyəsi" informasiya proqramlarının Azərbaycan təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Belarus nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# Naxçıvanda yaz-tarla işlərinə hazırlıqla əlaqədar müşavirə keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 14-də "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində muxtar respublikada yaz-tarla işlərinə hazırlıqla əlaqədar səyyar müşavirə keçirilib.





Naxçıvan Muxtar Respublikası baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək deyib ki, aqrar sahədə həyata keçirilən islahatlar və göstərilən dövlət dəstəyi muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsinə etibarlı zəmin yaradıb. İqtisadiyyatın real sektorunun əsas istiqamətlərini müəyyən edən dövlət proqramlarının həyata keçirilməsi, lizinq xidmətlərinin genişləndirilməsi, taxıl və soyuducu anbarların həcminin artırılması, istixana komplekslərinin, quşçuluq, balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması nəticəsində muxtar respublikanın kənd təsərrüfatında inkişaf təmin edilib. Artıq muxtar respublikada kənd təsərrüfatı məhsullarının intensiv amillər hesabına artırılması üçün yeni innovativ texnologiyalar tətbiq edilir, dünyanın aparıcı ölkələrində istehsal olunan kənd təsərrüfatı texnikaları istifadə olunur.

Qeyd olunub ki, 2018-ci ilin payızında cari ilin məhsulu üçün muxtar respublikada 31 min 667 hektar sahədə taxıl əkini aparılıb. Artıq muxtar respublikada yaz-tarla işlərinə başlanılıb. Bu ilin yazında 27 min hektardan artıq sahədə əkin aparılacaq. Eyni zamanda, 70 hektar sahədə yeni meyvə bağları, 6 hektar sahədə üzüm bağı, 106 hektar sahədə tinglə bərpa, 170 hektar sahədə isə toxumla bərpa olmaqla, ümumilikdə, 352 hektar sahədə yaşıllaşdırma tədbirlərinin aparılması nəzərdə tutulub. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması və Tədbirlər Planının təsdiq edilməsi bu sahənin inkişafına səbəb olub. Hazırda muxtar respublikada 525 böyük ailə təsərrüfatı mövcuddur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: "Muxtar respublikada həyata keçirilən tədbirlər kənd təsərrüfatının inkişafını təmin etmiş, əkinəyararlı torpaqlar əkin dövriyyəsinə qatılmış, aqrar sahədə məhsul istehsalı artırılmışdır. Bu işlərin həyata keçirilməsində əsas məqsəd ondan ibarətdir ki, muxtar respublikada torpaqlardan səmərəli istifadə olunsun, insanların məşğulluğu və ərzaq təhlükəsizliyi təmin edilsin, məhsul ixracı yaransın. Artıq muxtar respublikada ərzaq təhlükəsizliyi təmin edilmiş, daxili tələbat ödənilməklə yanaşı, həm də kənd təsərrüfatı məhsullarının ixracına başlanılmışdır. Bütün bunlar isə yaradılan şəraitin, eyni zamanda, kənd təsərrüfatı sahəsində çalışanların səyləri hesabına olmuşdur".

Ali Məclisin Sədri muxtar respublikada kənd təsərrüfatının inkişafında əməyi olanlara təşəkkürünü bildirərək deyib: "Bu gün ölkə Prezidenti kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin təmin olunmasına hərtərəfli diqqət və qayğı göstərir. Ölkəmizin hər yerində əkinəyararlı torpaqlardan səmərəli istifadə olunur. Göstərilən dövlət qayğısı nəticəsində əhalinin bu sahəyə marağı artıb. Torpaq mülkiyyətçilərinə subsidiyaların verilməsi, torpaqların vergidən azad olunması, kənd təsərrüfatı məhsullarının sərbəst satışı üçün şəraitin yaradılması, güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi aqrar sahənin inkişafına səbəb olmuşdur. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın aqrolizinq xidmətində 300-dən artıq müasir kənd təsərrüfatı texnikası vardır".

Ali Məclisin Sədri deyib: "Ümummilli lider Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikaya rəhbərlik etdiyi zaman torpaqların özəlləşdirilməsinə başlanılmış və bu proses 1996-cı ildə başa çatdırılmışdır. Bu gün Naxçıvan Muxtar Respublikasının torpaq mülkiyyətçiləri arasında fermer təsərrüfatı yaradanlar və ailə təsərrüfatları quranlar da vardır. Qarşıda duran əsas vəzifə ailə təsərrüfatlarını və fermerləri müasir texnikalarla təmin etməkdən və fəaliyyətlərini genişləndirməkdən ibarətdir. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Dövlət tərəfindən güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili və sərbəst ixracı bu sahənin inkişafına səbəb olmuşdur. Meliorativ tədbirlərin görülməsi, torpaqların su təminatının yaxşılaşdırılması, yeraltı suvarma şəbəkələrin qurulması, yeni subartezian quyularının qazılması, kəhrizlərin bərpası, suvarma kanallarının mütəmadi təmizlənməsi və anbarlara suyun yığılması əkilən torpaqlardan səmərəli istifadə olunmasına imkan verir. Eyni zamanda, kənd təsərrüfatı sahəsində çalışanlara dövlət dəstəyi ilə güzəştli şərtlərlə texnikaların verilməsi və əl əməyinin yüngülləşdirilməsi həm bu sahəyə marağı, həm də kənd təsərrüfatı məhsulları istehsalında rentabelliyi artırmışdır".

Ali Məclisin Sədri deyib bu il Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan olunduğunu vurğulayıb. "Bu, təsadüfən qəbul olunmuş qərar deyil. Artıq muxtar respublikada ixtisaslaşmış ailə təsərrüfatları fəaliyyət göstərir, müxtəlif çeşiddə məhsullar istehsal olunur. Ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların qablaşdırılması üçün tədbirlər görülür, yarmarka və festivallar keçirilir. Lakin buna baxmayaraq, rayon icra hakimiyyətləri və aid qurumlar ailə təsərrüfatlarının inkişafına bundan sonra da dəstək verməlidirlər. Ailə təsərrüfatları maarifləndirilməli, kreditlər verilməli, ailə təsərrüfatlarındakı mal-qaranın sayı artırılmalı, əkin atlaslarından səmərəli istifadə olunmalı, torpaqların xüsusiyyətlərinə uyğun əkinlər aparılmalı və meyvə bağları salınmalıdır. Hər bir ailə təsərrüfatı ilə fərdi iş aparılmalı, onlara istiqamət verilməli, istehsal etdikləri məhsullar daxili bazara çıxarılmalı və ixraca yönəldilməlidir. Rayonlar üzrə ailə təsərrüfatları qeydiyyata alınmalı, gələcəkdə ailə təsərrüfatlarının genişləndirilərək fermer təsərrüfatlarına çevrilməsinə şərait yaradılmalıdır. Gətirilən yeni texnikalar və aqrar sahədə həyata keçirilən digər tədbirlər də ailə təsərrüfatlarının inkişafına xidmət edir. Aid təşkilatlar ailə təsərrüfatlarının inkişafında təşəbbüskarlıq göstərməli, onların ehtiyacları ödənilməli və fəaliyyətləri genişləndirilməlidir. Dövlət bu işlərin görülməsi üçün lazımi şəraiti yaradıb. Çünki ailə təsərrüfatı həm ailə üzvlərinin məşğulluğunu təmin edir, həm də bazarın yerli məhsullarla təminatında mühüm rol oynayır. Ona görə də ailə təsərrüfatlarını inkişaf etdirməklə ərzaq təhlükəsizliyini və məşğulluğu təmin etmək qarşıda duran əsas vəzifədir".

Ali Məclisin Sədri aid dövlət təşkilatları tərəfindən qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetiriləcəyinə və ailə təsərrüfatlarının formalaşmasında ciddi dönüşə nail olunacağına əminliyini bildirib, bu işdə hər kəsə uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxıb.

Bildirilib ki, fəaliyyəti dövründə Naxçıvan Aqrolizinq Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2667 kənd təsərrüfatı texnikası alınıb. Həmin texnikaların 2086-sı lizinq yolu ilə torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına və fermerlərə verilib. Lizinqə verilmiş texnikalara görə 7 milyon 370 min manat güzəşt tətbiq edilib, 314 ədəd texnika və texnoloji avadanlığın dəyəri tam ödənildiyindən 207 sahibkara həmin texnikaların onların şəxsi mülkiyyətinə keçirilməsinə dair sənədlər təqdim olunub. 2019-cu ildə tələbata uyğun olaraq 292 texnika və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. Alınan texnikalardan 10-u kombayn, 66-sı traktor, 54-ü kotan, 12-si çiləyici, 15-i rotorlu otbiçən, 13-ü dırmıq, 13-ü gübrəsəpən, 20-si kanalaçan, 15-i qırxım aparatı, 5-i taxılsəpən, 1-i toxumtəmizləyən, 4-ü çizel, 4-ü dərmansəpən, 25-i qüvvəli yem maşını, 10-u otdoğrayan maşın, 2-si əl ilə yer şumlayandır. Həmçinin alınmış avadanlıqlar içərisində 17 dəst çiləmə suvarma sistemi də vardır.

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində və rayon bazalarında fəaliyyət göstərən baytarlıq aptekləri, ehtiyat hissə və gübrə anbarları, eləcə də təmir sexləri muxtar respublikada yaz-tarla işlərinin, becərmə və yığım proseslərinin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri aqrar sahədə ailə təsərrüfatlarının formalaşdırılması, ailə təsərrüfatlarının tələbatına və sifarişlərinə uyğun texnikaların alınıb gətirilməsi, kənd təsərrüfatının inkişafında texnoloji yeniliklərin tətbiqi və səmərəli metodlardan istifadə ilə bağlı maarifləndirmə işlərinin aparılması, rayon icra hakimiyyətləri və İqtisadiyyat Nazirliyi tərəfindən ailə təsərrüfatlarının müraciətlərinin araşdırılması və kreditlərin verilməsinin davam etdirilməsi barədə tapşırıqlar verib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) bildiriblər ki, 2019-cu ilin martında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, xidmət rəisi, general-leytenant Arzu Rəhimov martın 14-də Göyçay, Yevlax, Bərdə, Tərtər, Zərdab, Ağdaş və Ucar rayonlarından olan vətəndaşları qəbul edib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşların müraciətləri əsasən, həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun verilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub. Xidmət rəisi vətəndaşların müraciətlərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verib. Bir sıra müraciətlər yerindəcə həll edilib. Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

* * *

Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə martın 14-də şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Ucarda vətəndaşları qəbul edib.

DİM-dən bildirilib ki, qəbulda Ucar rayonunun sakinləri ilə yanaşı, Göyçay, Kürdəmir və Ağsu rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Görüşdə əsasən ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları, ali təhsil müəssisələrinin magistraturalarına qəbul, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının kolleclərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, dövlət qulluğu sertifikatının alınması və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

**AZƏRTAC**

# İlham Əliyevin islahatlar konsepsiyası dünyada ən səmərəli modellərdəndir

Əvvəli 1-ci səh.



Respublikamızın ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi sənəddə əksini tapdı. Prezidentin yanvarın 30-da imzaladığı digər fərmanla isə şəhid ailələri üçün Prezident təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 300 manat müəyyən edildi. Bu fərmanların hər biri şəhid ailələrinin sosial müdafiəsinin yaxşılaşdırılmasının ölkədə aparılan siyasətin başlıca məqsədlərindən biri olduğunu bir daha təsdiq etdi və ictimaiyyət tərəfindən böyük rəğbət və məmnunluqla qarşılandı.

Ölkəmizin maliyyə imkanlarının çoxalması adekvat olaraq xalqın sosial rifahının, güzəranının daha da yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində atılan addımların real nəticələri ilə müşayiət olunur. Prezident İlham Əliyev fevralın 25-də keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə bir daha qeyd etdi ki, əlavə gəlirlər ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəldilməlidir. Təkcə yanvar ayında vergi və gömrük orqanlarından büdcəyə daxilolmalar 105 milyon manat artmışdır. Bütün bu artımlar isə, cənab Prezidentin qeyd etdiyi kimi, vətəndaşların rifahının daha da yüksəldilməsinə yönəldildi və fevral ayında bu istiqamətdə imzalanan müvafiq fərman və sərəncamlar ölkə ictimaiyyəti tərəfindən yüksək rəğbət və minnətdarlıqla qarşılandı.

Beləliklə, fevral ayında imzalanan sərəncam və fərmanlarla 3 milyon vətəndaşı əhatə edən böyük sosial tədbirlər görüldü. Bunlardan biri minimum aylıq əməkhaqqının artırılması oldu. Fevralın 8-də imzalanan sərəncamla ölkə üzrə minimum əməkhaqqı 50 manat (38,5 faiz) artırılaraq 180 manata çatdırıldı. Bu, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir.

Prezidentin fevralın 14-də imzaladığı "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmanında dəyişiklik edilməsi barədə fərman, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamlar da sosial islahatlar paketinin mühüm tərkib hissələridir. Bu sənədlərlə təqribən 100 mindən çox tələbənin təqaüdü artırıldı. Bu sənədlər təkcə bir gəncin təqaüdünün artırılması və yaxud ailə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı deyil, bütövlükdə Azərbaycan dövlətinin, ölkə rəhbərinin öz vətəndaşlarına olan yüksək insani münasibətinin nəticəsidir.

Başqa bir mühüm sosial qərar əmək pensiyasının minimum məbləğinin artırılması oldu. Bununla bağlı qanun layihəsi Milli Məclisin fevralın 19-da keçirilən iclasında qəbul edildi. Prezident İlham Əliyevin təsdiqlədiyi bu qanuna əsasən martın 1-dən əmək pensiyasının minimum məbləği 160 manat miqdarında müəyyən olunub. Dəyişiklik 233 min nəfərin pensiyasında artıma gətirib çıxaracaq. 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası 30 faiz artacaq. Bütövlükdə isə əhalinin böyük bir qisminin pensiyası 38,5 faiz civarında artacaq.

Vətəndaşları son illərdə narahat edən məsələlərdən biri yeni inşa edilən binalarda aldıqları mənzillərin sənədləşdirilməsində yaranan problem idi. Dövlət başçısı bu problemə də birdəfəlik son qoydu. Belə ki, fevralın 19-da imzalanan "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmana əsasən, təxminən 400 çoxmənzilli binanın sənədləşməsi məsələsində yaranmış problemlər aradan qaldırılır. Bu qərar da vətəndaşların həm sosial, həm də iqtisadi maraqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Fevralın 25-də imzalanan "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam da Prezident İlham Əliyevin müəyyən etdiyi sosial paketin mühüm elementlərindən biridir. Sərəncama uyğun olaraq, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması nəzərdə tutulur. Həmçinin sosial müavinətin məbləği valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləği isə 146 manatdan 300 manata çatdırılacaq.

Sərəncam, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə əsas yaradıb. Ümumilikdə isə bu sərəncam 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması məqsədinə xidmət edir.

Məlum olduğu kimi, bir neçə il əvvəl maliyyə bazarlarında baş vermiş hadisələrdən sonra dollar hesabı ilə banklardan götürülən kreditlərin ödənməsində çətinliklər yaranmışdı. Budur, cənab İlham Əliyevin vətəndaş maraqlarına xidmət edən mütərəqqi sosial siyasəti bu məsələdə də vətəndaşın imdadına çatdı. Dövlət başçısının fevralın 28-də imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanla vətəndaşların bu narahatlığına da son qoyuldu. Fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi qiymətləndirilərək Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək. Bu fərman ümumilikdə 800 min nəfər vətəndaşı əhatə edəcək.

Bütün bu sosial tədbirlər bir daha göstərir ki, Prezident İlham Əliyev üçün ən ümdə məsələlərdən biri vətəndaşların yüksək rifah içində yaşaması, problemdən, qayğıdan uzaq olmasıdır. Ona görə Prezident daim xalqın arasında olur. Cənab İlham Əliyevin rayonlara səfərləri, yerli əhali ilə rəsmiyyətçilik baryerini aşan səmimi görüşləri, onları şəxsən dinləməsi, şəkil çəkdirməsi göstərir ki, dövlət başçısı üçün insan amili bütün məqsədlərin fövqündə dayanır. Beyləqanda sakinlərin Prezidentə etdiyi dualar tək bir vətəndaşın deyil, bütövlükdə xalqın alqışı idi. Sumqayıt bulvarındakı izdiham isə xalqın öz Prezidentinin ətrafında olmasının təcəssümü idi. Ağsu şəhərində sakinlərin məktublarını şəxsən qəbul etməsi isə Prezident İlham Əliyevin hər bir vətəndaşı qayğılandıran məsələyə həssas münasibətinin və yüksək diqqətinin göstəricisi idi. Dünyanın heç bir ölkəsində Prezidentlə vətəndaş arasında bu cür səmimi münasibətə rast gəlmək mümkün deyil. Hansı ölkənin Prezidenti vətəndaşlardan şəxsən ərizə yığır?! Bu, İlham Əliyevin xalqa son dərəcə bağlılığından irəli gəlir.

Martın 1-də mədəniyyət və incəsənət xadimləri ilə görüşdə Prezident İlham Əliyev bu məsələlərə toxunaraq sosial paketin təqribən 3 milyona yaxın insanı əhatə etdiyini vurğuladı. Ümumiyyətlə, bu görüş də cəmiyyətdə böyük əks-səda doğurdu və bir daha təsdiq etdi ki, Azərbaycan dövləti mədəniyyətin və incəsənətin inkişafı üçün nə lazımdırsa edəcək. Eyni zamanda bu diqqət və qayğı mədəniyyət sahəsində çalışanların öz peşələrinə və sənətlərinə daha ürəkdən bağlılıq hissini gücləndirir. Prezidentin xalq artisti Rasim Balayevə telefon açması da onun böyüklüyünün, sənət və sənətkara verdiyi diqqətin göstəricisidir.

Hər bir vətəndaşa yüksək diqqət və qayğı ilə yanaşılmasını biz eyni zamanda Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyətində də görürük. Öz işləri ilə cənab Prezidentin siyasi kursuna böyük dəstək verən Mehriban Əliyevanın xüsusən sosial sahədəki fəaliyyəti təqdirəlayiqdir. Ötən ay Birinci vitse-prezident kimi fəaliyyətinin ikinci ili tamam olan Mehriban Əliyevanın bu müddətdə sosial sahədə gördüyü işlər göz önündədir. Minlərlə məcburi köçkün vətəndaşımız yeni mənzillərlə təmin olunub. 2016-cı ilin Aprel döyüşlərində əlil olmuş qəhrəman döyüşçülərimizin ən yüksəkkeyfiyyətli protezlərlə təmin olunması Mehriban xanım Əliyevanın diqqətində olan məsələdir.

Azərbaycanın uğurlarını xarici ölkələrdə də görür və yaxından izləyirlər. Beynəlxalq təşkilatların tədbirlərində də biz Azərbaycanda gedən inkişaf proseslərinin dost ölkələrdə təqdir olunduğunu görürük. Lakin Azərbaycanda uğurla həyata keçirilən islahatların fonunda son vaxtlar antiazərbaycançı mərkəzlərin də fəaliyyətində fəallaşma hiss olunur. Əlbəttə, onların güclü Azərbaycan dövlətinin qarşısında zərrə qədər də təsir imkanları olmasa da, görünən budur ki, respublikamızın inkişafı, uğurları, insanların sosial rifahının yüksəlməsi bəziləri tərəfindən qısqanclıqla qarşılanır. Həmin antiazərbaycançı mərkəzlərin sifarişlərini yerinə yetirən AXCP sədri Əli Kərimli dövlətin və xalqın milli maraqlarını satmaqla məşğuldur. İqtisadi sferadakı müsbət göstəricilərə, islahatların uğurlu nəticələrinə və pozitiv yeniliklərinə, dövlətin sosial sahədə atdığı mühüm addımlara baxmayaraq, Ə.Kərimli yenə də ağa qara deməyindən qalmır. Onu narahat edən Azərbaycanın inkişafı, xalqın rifahının yüksəlməsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur onların onsuz da antimilli müstəvidə qurulmuş fəaliyyətlərini alt-üst edir, insanlara yalan sırımaq cəhdlərinin və siyasi iflasdan çıxış yollarının qarşısını alır.

Azərbaycan bu gün də inkişaf edir, sabah da inkişaf edəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə getdiyimiz bu yol dövlətimizi daha da gücləndirir, hər bir sahədə inkişafı və insanların yüksək sosial rifahını təmin edir. Heç bir qüvvə Azərbaycanı bu dinamik inkişaf yolundan döndərə bilməz.

***Eldar QULİYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini, iqtisad elmləri doktoru***

# Azərbaycan-İran iqtisadi əməkdaşlığının genişləndirilməsi müzakirə edilib





Azərbaycanda səfərdə olan İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsəndin rəhbərlik etdiyi nümayəndə heyəti Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyub.

Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, sonra iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin İran nümayəndə heyəti ilə keçirilən görüşündə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat-tranzit, turizm, investisiya, energetika, İKT və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib.

Nazir Şahin Mustafayev Azərbaycan və İran arasında siyasi və iqtisadi əlaqələrin inkişaf etdiyini, əməkdaşlığın genişlənməsində Azərbaycan və İran prezidentlərinin siyasi iradəsini, ikitərəfli əməkdaşlığın inkişafına böyük önəm verdiklərini vurğulayıb. Qarşılıqlı hörmət və dostluq, mehriban qonşuluq prinsiplərinə əsaslanan Azərbaycan-İran əlaqələri son illər sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan və İran beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edir və regional inkişafa öz töhfələrini verirlər.

İki ölkə arasında iqtisadi-ticarət əlaqələr barədə məlumat verən Şahin Mustafayev qeyd edib ki, ötən dövrdə ticarət əlaqələrinin inkişaf etdirilməsi istiqamətində davamlı tədbirlər görülüb, ticarət dövriyyəsi 2018-ci ildə əvvəlki ilə nisbətən 74 faiz artıb.

Ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşu sahəsində də uğurlu əməkdaşlıq həyata keçirilir. Bu əməkdaşlığın nümunəsi kimi Neftçala Sənaye Məhəlləsində birgə "Xəzər" avtomobil istehsalı zavodunu göstərmək olar.

Qeyd olunub ki, zavodda istehsal olunan avtomobillərin artıq 95 faizi satılıb. Bununla yanaşı, Pirallahı Sənaye Parkında "Caspian Pharmed" birgə əczaçılıq zavodu tikiləcək.

Nazir diqqətə çatdırıb ki, Azərbaycanla İran arasında, Hacıqabul Sənaye Məhəlləsində "Scania" markalı avtobuslar istehsal edəcək birgə müəssisənin yaradılması nəzərdə tutulur.

İranla əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini qeyd edən iqtisadiyyat naziri nəqliyyat-tranzit sahəsində də uğurlu əməkdaşlıq həyata keçirildiyini diqqətə çatdırıb. Böyük əhəmiyyətə malik "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin reallaşdırılması istiqamətində mühüm irəliləyişlərə nail olunub. Belə ki, bu məqsədlə müvafiq hüquqi baza yaradılıb. Azərbaycan bu layihə üzrə öz ərazisində müvafiq infrastrukturun yaradılması işini uğurla tamamlayıb. Astara-Astara dəmir yolunun tikintisi, Astaraçay üzərində dəmir yolu körpüsünün inşası, Astarada (İran) tikintisi davam edən yük terminalı və məhsul anbarları "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" layihəsi çərçivəsində həyata keçirilən işlərin mühüm tərkib hissələridir.

Bu günlərdə açılışı həyata keçirilən və mühüm əhəmiyyətə malik Qəzvin-Rəşt dəmir yolunun tikintisi də bu sahədə görülən uğurlu işlərin nəticələrindəndir. Uzunluğu 164 kilometr olan Qəzvin-Rəşt dəmir yolunun fəaliyyətə başlaması təkcə "Şimal-Cənub" deyil, eyni zamanda, "Cənub-Qərb nəqliyyat dəhlizi"-nin inkişafı istiqamətində atılmış çox önəmli addımdır. Bütün bunlar daşınan yüklərin həcminin artırılmasını təmin etməklə, Azərbaycan Respublikasının və İran İslam Respublikasının nəqliyyat-tranzit və ticarət-iqtisadi potensialının gücləndirilməsinə böyük töhfə verəcək. "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafı istiqamətində tədbirlər davam etdirilir. Qeyd olunub ki, 2018-ci ildə ötən illə müqayisədə "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" vasitəsilə yükdaşımaların həcmi 10 dəfə artıb.

Bildirilib ki, Azərbaycan və İran energetika sahəsində də uğurla əməkdaşlıq edir. Ölkələrimiz arasında "Xudafərin-Qız Qalası" və "Ordubad-Marazad" hidroqovşaqlarına dair sazişlər imzalanıb, 330 kilovoltluq Muğan (İmişli-Parsabad) elektrik xətti tikilib. Azərbaycandan İrana elektrik satışı üzrə Çərçivə Sazişi imzalanıb.

İranın iqtisadi işlər və maliyyə naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsənd son illərdə ölkələrimiz arasında əməkdaşlığın genişlənməsi üçün görülən işləri, Azərbaycan nümayəndə heyətinin bu ilin martında İrana səfərinin, keçirilən görüşlərin uğurlu olduğunu vurğulayıb, Bakıda keçiriləcək Dövlət Komissiyasının 13-cü iclasının ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı istiqamətlərinin müzakirəsi üçün əhəmiyyətli platforma olacağını qeyd edib.

F.Dejpəsənd ölkəsinin Azərbaycanla əlaqələrin daha da genişlənməsində maraqlı olduğunu bildirərək sənaye, energetika, kənd təsərrüfatı, səhiyyə, turizm, maliyyə və bank, sığorta, ticarət, gömrük və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarını diqqətə çatdırıb. Bildirilib ki, İranda birgə investisiyalı müəssisələrin yaradılması ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verə bilər.

Sonra Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-İran biznes forumu keçirilib. Tədbirdə hər iki tərəfdən turizm, sənaye, əczaçılıq, tikinti, ticarət, tekstil, maliyyə və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox sahibkar iştirak edib.

Biznes forumda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və İran dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətlərinin ikitərəfli əməkdaşlığın inkişafında əsas hərəkətverici qüvvə olduğunu, son illərdə ölkələrimiz arasında əlaqələrin ikitərəfli formatda, regional müstəvidə və beynəlxalq təşkilatlar çərçivəsində sürətlə inkişaf etdiyini vurğulayıb. Azərbaycan və İran arasında siyasi və iqtisadi əlaqələrin yüksələn xətlə inkişafı sahibkarlar arasında əməkdaşlığın daha da genişləndirilməsinə əlverişli şərait yaradır. Təsadüfi deyildir ki, son 5 ildə ölkələrimiz arasında 25 biznes forum və işgüzar görüş təşkil edilib.

İqtisadiyyat naziri bildirib ki, Azərbaycan-İran iqtisadi-ticarət əlaqələrinin inkişafı baxımından işgüzar dairələr arasında əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdə biznes forum, işgüzar görüş və sərgilərin keçirilməsi önəmlidir. Bugünkü biznes forum bu sahədə öz töhfəsini verəcəkdir.

Nazir Şahin Mustafayev hər iki ölkənin işgüzar dairələrini mövcud imkanlardan, sənaye parkları və məhəllələrində yaradılan əlverişli şəraitdən yararlanmağa və birgə layihələr həyata keçirməyə dəvət edib.

İranın iqtisadi işlər və maliyyə naziri, Azərbaycan-İran Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsənd ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında, qarşılıqlı iqtisadi-ticarət, maliyyə və digər sahələrdə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialı vurğulayıb. Fərhad Dejpəsənd İranın investisiya imkanları barədə məlumat verərək, azərbaycanlı investorların bu imtiyazlardan və güzəştlərdən yararlanmasının, bir sıra sahələrdə, o cümlədən mədən sənayesi, turizm, kənd təsərrüfatı sahəsində birgə müəssisələrin təşkilinin faydalı olacağını qeyd edib.

Sonra AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, İran Ticarət, Sənaye, Mədən və Kənd Təsərrüfatı Palatası sədrinin müavini Hüseyn Pirmüəzzin müvafiq olaraq Azərbaycanın və İranın biznes və investisiya mühiti, Azərbaycan Turizm Bürosunun şöbə müdiri Sevinc Zeynallı isə Azərbaycanın turizm imkanları barədə təqdimatla çıxış ediblər.

Tədbir Azərbaycan və İran iş adamları arasında əməkdaşlığın artırılması imkanlarının müzakirə olunduğu ikitərəfli görüşlərlə davam edib.

# Leyla Əliyevanın "Bizim həyət" layihəsi çərçivəsində növbəti məhəllə abadlaşdırıldı

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.















Martın 14-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Xətai rayonu, Məzahir Rüstəmov küçəsi, 12 ünvanında 1200 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə 1 mini-futbol meydançası, 6 idman qurğusu, uşaqlar üçün oyun meydançası və 18 oturacaq quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 3000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş bu həyət layihə çərçivəsində abadlaşdırılan iyirminci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1179-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038; 2013, № 6, maddə 615; 2015, № 11, maddə 1280; 2017, № 5, maddə 690; 2018, № 10, maddə 1965) 16-cı maddəsinin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

“Tərkibində dövlət sirri olan arxiv sənədlərindən istifadəyə, onların məxfiləşdirildiyi gündən məxfi məlumatlar üçün 10 ildən, tam məxfi məlumatlar üçün 20 ildən, xüsusi əhəmiyyətli məlumatlar üçün 30 ildən, məxfilik dərəcəsindən asılı olmayaraq şəxsin kəşfiyyat, əks-kəşfiyyat, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əməkdaşı olmasını və ya bu orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən, yaxud əməkdaşlıq etmiş şəxslərin şəxsiyyətini müəyyən etməyə imkan verən məlumatlar üçün 75 ildən sonra icazə verilir. Həmin müddətlər müvafiq icra hakimiyyəti orqanının rəyi ilə uzadıla bilər.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1480-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1480-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin üçüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya həyata keçirir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci və 23-cü bəndlərini rəhbər tutaraq, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1172-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7, (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12, (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli və 28 dekabr tarixli 1406-VQD, 1427-VQD, 1432-VQD nömrəli qanunları) 327-ci maddəsinin “Qeyd” hissəsinin 2-ci bəndinə “kateqoriyasına” sözündən sonra “(altkateqoriyasına)” sözü əlavə edilsin.

**Maddə 2.** “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599; 2010, № 4, maddə 276, № 10, maddə 841; 2013, № 11, maddə 1302; 2014, № 4, maddə 342; 2015, № 8, maddə 903, № 12, maddə 1439; 2016, № 2, (II kitab), maddə 221; 2017, № 2, maddə 140, № 12 (I kitab), maddə 2211; 2018, № 1, maddə 22) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 14.2.6-cı maddəyə “kateqoriyalı” sözündən sonra “(altkateqoriyalı)” sözü əlavə edilsin;

2.2. 27.1.1-ci maddəyə “kateqoriyası” sözündən sonra “və “D1” altkateqoriyası” sözləri, “avtonəqliyyat vasitələrini” sözlərindən əvvəl “B”, “C” kateqoriyalarına və ya “C1” altkateqoriyasına daxil olan” sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 27.1.1-1-ci maddə əlavə edilsin:

“27.1.1-1. “D1E” altkateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 25-dən az və 65-dən çox olmayan və “D” kateqoriyasına və ya “D1” altkateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi iki ildən az olmayan);”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında” Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Soçi şəhərində keçirilmiş 2017-ci il 11 oktyabr tarixli iclasında imzalanmış “Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında” Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında Protokol”un icrası ilə bağlı səlahiyyətli orqanların müəyyən edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1499-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında Protokol”un 5-ci maddəsinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Soçi şəhərində keçirilmiş 2017-ci il 11 oktyabr tarixli iclasında imzalanmış “Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında Protokol”u Azərbaycan Respublikası tərəfinin həyata keçirməsi ilə bağlı səlahiyyətli orqanlar qismində Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi müəyyən edilsinlər.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən Protokolun Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi üzrə səlahiyyətli orqanların müəyyən edildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2019-cu il*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli fərmanı ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263) ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nda dəyişiklik” təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2019-cu il*

# Məhkəmələrin yükünü azaltmağa xidmət edən mediasiya təşkilatları yaradılacaq

Martın 14-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirildi. Komitə sədri Əli Hüseynli bildirdi ki, gündəliyə “Mediasiya haqqında” qanun layihəsi, eləcə də “Azərbaycan Respublikasının Dövlət gerbi haqqında” 1993-cü il 19 yanvar tarixli 460 nömrəli konstitusiya qanununun ləğvi barədə, “Azərbaycan Respublikasının Dövlət himni haqqında” 1992-ci il 27 may tarixli 142 nömrəli Qanununun ləğvi barədə konstitusiya qanununun layihələri daxildir.

Birinci məsələ barədə məlumat verən Əli Hüseynli dedi ki, “Mediasiya haqqında” qanun layihəsi Prezident İlham Əliyevin təklifi əsasında hazırlanıb. Layihənin hazırlanmasında beynəlxalq təcrübədən istifadə olunub.

Qeyd edildi ki, ciddi əhəmiyyəti olan qanun layihəsi bir çox normativ hüquqi aktlarda dəyişikliklər edilməsini zəruri edəcək. Mediasiya yaranmış mübahisənin məhkəmədənkənar alternativ həlli prosesidir. 25 yaşı tamam olan, ali təhsilli və mediatorların ilkin hazırlığı üzrə təlimdən keçmiş şəxslər mediator olaraq fəaliyyət göstərə bilər. Həmin şəxsin ən azı üç illik iş stajı olmalıdır.

Qeyd edildi ki, mediasiyanın tətbiq dairəsinə mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla), o cümlədən ailə, əmək, inzibati hüquq münasibətlərindən, cinayət və inzibati xətalar haqqında işlərdən irəli gələn mübahisələr daxildir.

İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr zamanı qanuna uyğun olaraq məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur. İlkin mediasiya mərhələsi məcburi sayılır və tərəflərdən biri mediasiya prosesinə gəlməkdən imtina edərsə, o halda cərimələnir. Mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxsin xərclərini dövlət qarşılayacaq.

Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin rəis müavini Elçin Nəsibov söylədi ki, mediasiya Avropa təcrübəsində son illər aktivləşib və bunun da səbəbi məhkəmələrin həddən artıq yüklənməsidir. Qeyd edildi ki, qanunun 2020-ci il iyulun 1-dən qüvvəyə minməsi nəzərdə tutulub.

Deputatlardan Azay Quliyev, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Çingiz Qənizadə, Tahir Kərimli qanun layihəsi ilə bağlı fikir və təkliflərini bildirdilər.

Qanun layihəsində yaş həddinin artırılması, eləcə də iş stajı ilə bağlı maddənin ləğvi və prosesin “Mediasiya” deyil, ana dilində “Barışıq” adlandırılması təklif edildi. Əlavə olundu ki, bu qanun Azərbaycanda məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar istiqamətində yeni bir addım olacaq və məhkəmələrin yükünün azaldılmasına xidmət edəcək. İctimai əhəmiyyətli olduğu üçün qanun layihəsinin ictimai müzakirəsi də təklif edildi.

Müzakirələrdən sonra gündəlikdəki hər üç qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edildi.

***Fərizə ƏHMƏDOVA,***
***“Azərbaycan”***

# *Veinsztok İSRAEL:* “Azərbaycan yəhudilərin antisemitizmə məruz qalmadığı yeganə ölkədir”

Martın 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Böyük Britaniyada yaşayan yəhudi icmasının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Səməd Seyidov Azərbaycanın dünyada tolerant, multikultural bir ölkə kimi tanındığını söyləyib. Qeyd edib ki, Azərbaycanda yəhudilər yaşadıqları bütün dövrlərdə heç zaman ayrı-seçkiliyə, təzyiqə məruz qalmayıblar.

Milli Məclisin yəhudi əsilli deputatı Yevda Abramov Azərbaycanın dünyada tolerant, multikultural bir ölkə kimi tanındığını deyib. O, Azərbaycanda yəhudilərə göstərilən diqqət və hörmətdən danışıb. Bildirib ki, yəhudilər Azərbaycanda 2500 ildir məskən salıblar. Burada yəhudilər heç vaxt sıxışdırılmayıb, antisemitizmə məruz qalmayıblar.

Azərbaycanda bütün dini nümayəndələr üçün gözəl şəraitin yaradıldığını deyən Yevda Abramov qeyd edib ki, dövlət tərəfindən yəhudilərə öz dillərində təhsil almaq, öz mədəniyyətlərini sərgiləmək üçün hər cür şərait yaradılıb. Ölkədə 6 yəhudi icması, 10-a yaxın sinaqoq fəaliyyət göstərir. Bu da özlüyündə Azərbaycanın tolerantlığının bariz nümunəsidir.

Nümayəndə heyətinin rəhbəri Veinsztok İsrael Azərbaycanda yəhudi icmasına göstərilən yüksək diqqət və qayğının təqdirəlayiq olduğunu vurğulayıb. “Azərbaycan yəhudilərin yaşadığı yeganə ölkədir ki, burada onlar antisemitizmə məruz qalmayıblar”, - deyə nümayəndə heyətinin rəhbəri vurğulayıb.

Veinsztok İsrael, həmçinin İsrail-Azərbaycan münasibətlərinin inkişafını sevindirici hal kimi qiymətləndirib.

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri HHQ-nin hərbi hissəsində olublar





Xarici dövlətlərin ölkəmizdə akkreditə edilmiş hərbi attaşeləri üçün Hərbi Hava Qüvvələrinin hərbi hissəsinə tanışlıq ziyarəti təşkil olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müxtəlif ölkələri təmsil edən 22 nəfərdən ibarət hərbi attaşeyə əvvəlcə hərbi hissə və onun yaranma tarixi barədə ümumi brifinq təqdim edilib.

Hərbi attaşelərin ziyarəti zamanı hərbi hissədə olan əsas texniki nümunələr haqqında məlumat verildikdən sonra onlar praktiki nümayiş etdirilib.

Sonda hərbi hissə tərəfindən xarici qonaqlara Novruz bayramı münasibətilə ziyafət təşkil olunub.



# Milli Məclisdə Ümumdünya Vərəmlə Mübarizə Gününə həsr olunmuş dinləmələr keçirilib

Martın 14-də Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclas çərçivəsində Ümumdünya Vərəmlə Mübarizə Gününə həsr olunmuş dinləmələr olub.

Komitənin sədri Əhliman Əmiraslanov son dövrlərdə vərəmlə mübarizə istiqamətində həm dünyada, həm də Azərbaycanda xeyli işlər görüldüyünü bildirərək deyib: “Azərbaycanda vərəmlə mübarizə, bu sahədə kadr potensialının yaxşılaşdırılması, ən müasir dərmanlarla təchizat sahəsində xeyli işlər görülüb. Vərəm bütün dünyada yaşayan insanları narahat edən qlobal bir problemdir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) statistikasına baxanda görürük ki, dünyada 20 milyon vərəmdən əziyyət çəkən insan var. Təxminən 6,5-7 milyon insan vərəmdən dünyasını dəyişir”.

Ə.Əmiraslanov diqqətə çatdırıb ki, ÜST vərəmlə mübarizəni prioritet məsələ kimi qeydə alıb. Dünyada 2000-2015-ci illər ərzində 49 milyon insan vərəmdən müalicə alıb və onların həyatı xilas edilib. Lakin aşkarlanma və müalicə sahəsində hələ də xeyli problemlər mövcuddur. Azərbaycanda isə son illərdə xəstəliyə yoluxmanın dinamikasında azalma müşahidə olunur. Ölkəmizdə bu istiqamətdə çox işlər görülür, hər il büdcədən səhiyyəyə ayrılan vəsait artır.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı qeyd edib ki, Azərbaycanda “Vərəmlə mübarizə haqqında” qanun 2001-ci ildə qəbul edilib, bu sənədə yenidən baxılmalıdır. Bu xəstəliklə ciddi mübarizənin aparılmasına baxmayaraq, bu gün bəzi ölkələrdə “vərəm damğası” problemi var. Vərəmli insanlar ailə qurmaqda, iş tapmaqda çətinlik çəkirlər. Ona görə də “vərəm damğası”na qarşı mübarizə aparmaq lazımdır. Azərbaycanda vərəmlə mübarizə sahəsində çox ciddi işlər aparılır, bu, davam etdirilməlidir.

Hande Harmancı deyib ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycana vərəmlə mübarizə üzrə qanunvericiliyin təkmilləşdirilməsi üçün lazım olan bütün yardımları göstərməyə hazırdır.

İclasda çıxış edən Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Rəşad Mahmudov, Qənirə Paşayeva, Səhiyyə Nazirliyinin, Ədliyyə Nazirliyinin nümayəndələri, tibb mütəxəssisləri vərəmlə mübarizə barədə fikirlərini bildirib, təkliflərini veriblər. Bu xəstəliyin kökünün kəsilməsi üçün bölgələrdə maarifləndirmə işlərinin aparılmasının vacibliyi vurğulanıb.

# Bakıda idman gimnastikası üzrə dünya kuboku yarışlarının açılış mərasimi olub

Martın 14-də Bakıda kişi və qadın idman gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) dünya kuboku yarışlarının açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, açılış mərasimi Milli Gimnastika Arenasında iştirakçı ölkələrin paradı ilə başlayıb.





Tədbirdə çıxış edən Azərbaycan Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev turnirdə 41 ölkəni təmsil edən idmançıları və qonaqları salamlayıb. Qeyd edib ki, idmançılarımızın beynəlxalq yarışlarda göstərdiyi yüksək nəticələrlə fəxr edən Azərbaycan indi həm də belə yarışların mütəmadi təşkil edildiyi məkana çevrilib. Son bir neçə il ərzində ilk Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" Azərbaycan Qran-prisi və digər yarışlara yüksək səviyyədə evsahibliyi edən ölkəmizin bu sahədəki uğurları ilk növbədə Prezident İlham Əliyevin idman siyasəti ilə bağlıdır. Məhz dövlət başçısının diqqət və qayğısı sayəsində indi respublikamızın bütün bölgələrində fəaliyyət göstərən olimpiya mərkəzlərində, idman məktəblərində, idman klublarında ölkə gənclərinin idmanla məşğul olması və öz göstəricilərini yüksəltməsi üçün bütün şərait yaradılıb. Çox sevindirici haldır ki, vaxtı ilə ölkəmiz üçün ənənəvi idman növü sayılmayan gimnastika bu gün respublikamızda özünün inkişaf dövrünü yaşayır, gimnastlarımız Azərbaycanı beynəlxalq yarışlarda uğurla təmsil edirlər.

"Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın gimnastikanın inkişafına göstərdiyi daimi diqqət və qayğı nəticəsində yeniyetmələr və gənclər arasında bu idman növünün populyarlığı getdikcə artır və gimnastika ilə məşğul olanların sayı ildən-ilə çoxalır. Azərbaycan Gimnastika Federasiyasının 2017-ci və 2018-ci illərdə Beynəlxalq Gimnastika Federasiyasının reytinq siyahısında birinci sırada yer tutması məhz bu diqqətin təzahürü, ölkəmizdə gimnastikanın inkişafı istiqamətində fəaliyyətin səmərəliliyinin göstəricisidir", - deyə Yusuf Məmmədəliyev vurğulayıb.

Prezident Administrasiyasının şöbə müdiri bildirib ki, il ərzində təşkil edilən Avropa və dünya miqyaslı yarışların sayına və təşkilinin keyfiyyətinə, yarış məkanlarının texniki göstəricilərinə görə Bakı artıq dünyanın gimnastika mərkəzlərindən biri hesab oluna bilər. 2019-cu ildə Bakıda gimnastikanın müxtəlif növləri üzrə 7 beynəlxalq tədbir təşkil ediləcək. Bu, ölkəmiz üçün böyük şərəf və dünya idman ictimaiyyətinin yüksək etimadının göstəricisi olmaqla, həm də böyük məsuliyyət deməkdir. Əminliklə demək olar ki, biz bu məsuliyyətli işin öhdəsindən layiqincə gələcəyik.

Bu gün açılış mərasimi keçirilən yarışın fərqli cəhətlərindən biri Tokio Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşımasıdır. Bu barədə danışan Y.Məmmədəliyev deyib: "Bütün gimnastlara hər bir idmançının ən böyük arzusu olan olimpiya oyunlarında iştirak etmək hüququ qazanmağı arzulayıram. İdman yarışları bizim üçün həm də bir-birimizi daha yaxşı tanımaq, təmsil etdiyimiz xalqların və ölkələrin milli-mənəvi dəyərləri, mədəniyyəti barədə məlumat almaq, dünyanın nə qədər gözəl və rəngarəng olduğunu bir daha hiss etmək imkanı yaradır. Əminəm ki, qədim Azərbaycan torpağında keçirdiyiniz bir neçə gün yaddaşınızda silinməz izlər qoyacaq, qazandığınız idman nailiyyətləri dünyada sülh və əmin-amanlığın, xalqlar arasında dostluğun qorunub-saxlanılması və inkişaf etdirilməsi işinə əvəzsiz töhfə olacaq".

İdmançılara uğurlar arzulayan Y.Məmmədəliyev dünya kuboku yarışlarını açıq elan edib.

Sonra Azərbaycanın Dövlət himni səsləndirilib.

Martın 17-dək davam edəcək turnir "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq istəyən idmançılar üçün mühüm əhəmiyyət daşıyır. Olimpiadaya təsnifat xarakterli bu yarışda iştirak etmək üçün 41 ölkə qeydiyyatdan keçib. Medallar və lisenziya xalları uğrunda mübarizəyə 121 kişi və 49 qadın idman gimnastı qoşulub. Turnirə olimpiya oyunlarının, dünya və Avropa çempionatının medalçıları qatılıb. Yarışların ilk iki günündə təsnifat, sonrakı iki gündə isə final mərhələləri keçiriləcək.

Dünya kuboku yarışlarında ölkəmizi Murad Ağarzayev, İvan Tixonov, Nikita Simonov və Marina Nekrasova təmsil edirlər.

Turnirdə ən yüksək icra xalı toplamış gimnastlara Azərbaycan Gimnastika Federasiyasının ənənəvi kuboku - "AGF Trophy" təqdim olunacaq.

# Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində Prezidentin fərmanının icrasına həsr olunmuş müşavirə keçirilib



Martın 14-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin inzibati binasında "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 fevral tarixli Fərmanının icrası ilə bağlı məsələlərin müzakirəsinə həsr olunan müşavirə" keçirilib.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, müşavirədə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, "Azərenerji" ASC-nin prezidenti Balababa Rzayev, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, SOCAR-ın "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyev, Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev, Nazirlər Kabineti Kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri Qasım Abdullayev iştirak ediblər.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərman vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində dövlət başçısının atdığı növbəti mütərəqqi addım olaraq, bəzi çoxmənzilli binaların istismara verilməsinin sürətləndirilməsinə imkan yaradacaq. Nazir artıq bu istiqamətdə aidiyyəti dövlət qurumlarının birgə fəaliyyətini tənzimləyən işçi qrupun yaradıldığını və fərmandan irəli gələn məsələlərin operativ icrasına başlanıldığını qeyd edib. Bildirib ki, illərlə qaz, işıq, su, poçt xidməti kimi problemlərlə üzləşmiş vətəndaşlar Prezidentin fərmanının icrası nəticəsində bu çətinliklərdən xilas olacaqlar. Bu baxımdan da bugünkü müşavirə adıçəkilən fərmanın icrası ilə bağlı aidiyyəti dövlət qurumlarının qarşılıqlı səmərəli fəaliyyətinin daha da gücləndirilməsinə və keyfiyyətinin artırılmasına xidmət edəcək.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev mühüm əhəmiyyət kəsb edən fərmanın icrası zamanı on minlərlə sakinin probleminin öz həllini tapacağını deyib. Bildirib ki, işçi qrup artıq yoxlanılmış binaların istismara verilməsini daha da sürətləndirmək istiqamətində işlər aparır.

Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev fərmandan irəli gələn məsələlərin əhəmiyyətindən danışaraq, bu istiqamətdə aidiyyəti dövlət qurumlarının əlaqəli işinin vacibliyini vurğulayıb.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov fərmanın əhalinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm rol oynadığını diqqətə çatdıraraq bildirib ki, rəhbərlik etdiyi qurum işçi qrup çərçivəsində çoxmənzilli binaların istismara verilməsinin sadələşdirilməsi üçün lazımi işlərin görülməsində yaxından iştirak edir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov aidiyyəti dövlət qurumlarının birgə fəaliyyəti nəticəsində mühüm işlər görüldüyünü və fərmanın icrası istiqamətində Bakı Şəhər İcra Hakimiyyətinin də aidiyyəti dövlət orqanları ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

"Azərenerji" ASC-nin prezidenti Balababa Rzayev, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, SOCAR "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyev adıçəkilən fərmana uyğun olaraq, bəzi çoxmənzilli binaların elektrik enerjisi, su və qaz ilə lazımi səviyyədə təminatı üçün müvafiq tədbirlərin həyata keçirildiyini bildiriblər.

Sonra mövzu ilə bağlı həlli vacib olan məsələlərin geniş müzakirəsi aparılıb, fərmanın icrasının vaxtında və keyfiyyətlə həyata keçirilməsi üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

# Prezident Administrasiyasının məsul işçiləri bir sıra şəhər və rayonlarda vətəndaşlarla görüşüblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçilərinin respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, martın 14-də Bakının Yasamal rayonunda, Mingəçevir şəhərində, Ağdam, Ağdaş, Biləsuvar, Cəbrayıl (Biləsuvar), Hacıqabul, Kürdəmir, Qazax, Qəbələ və Quba rayonlarında vətəndaşlarla görüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Müraciətlərin bir hissəsi yerindəcə həllini tapıb, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar ilk növbədə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlət başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Vətəndaşlar bu cür qəbulların təşkilinə, problemlərinin həllinə göstərilən diqqətə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildiriblər.

Martın 15-də Prezident Administrasiyasının məsul işçiləri Bakının Binəqədi rayonunda, həmçinin Yevlax, Ağstafa, Bərdə, Cəlilabad, Göyçay, Xaçmaz, Xocavənd (Beyləqan), Neftçala, Oğuz və Ucar rayonlarında vətəndaşları qəbul edəcəklər.

# Uşaqlar üçün təhlükəsiz internet



Ölkəmizdə kibertəhlükəsizlik sahəsində səmərəliliyin və maarifləndirmə səviyyəsinin artırılması və texniki hazırlığın yüksəldilməsi məqsədi ilə 11-15 mart tarixlərində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "Kibertəhlükəsizlik həftəsi" keçirilir. "Azercell Telekom" MMC-nin də fəal iştirak etdiyi "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində fərqli qurumların dəstəyilə müxtəlif forum və tədbirlər, müsabiqələr təşkil olunur. Mart ayının 13-ü Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən BMT-nin İnkişaf Proqramı ilə birgə "Kibertəhlükəsizlik: bizim ortaq məsuliyyətimiz" mövzusunda VI Regional İnternet İdarəçilik Forumu (RİİF) keçirilib. Forum region ölkələrinin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirib. Tədbirdə "Regionun kibertəhlükəsizlik məsələləri", "Kibertəhlükəsizliyin innovativ həlləri", "Uşaqlar üçün təhlükəsiz internet" kimi mövzularda sessiyalar təşkil olunub. Hökumət, biznes və diplomatik korpusun səlahiyyətli nümayəndələri, elmi dairələrin və vətəndaş cəmiyyətinin, eləcə də internet ictimaiyyətinin mütəxəssislərinin çıxış etdiyi forumda "Azercell Telekom" MMC-nin Korporativ Ünsiyyət departamentinin rəhbəri Nigar Şıxlinskaya "Uşaqlar üçün təhlükəsiz internet" mövzusunda şirkətin həyata keçirdiyi layihələr barədə danışıb. Nigar Şıxlinskaya çıxışı zamanı ölkənin lider mobil operatoru olan "Azercell" şirkətinin kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə məsələlərinə həm texniki, həm də korporativ sosial məsuliyyət siyasəti baxımından böyük diqqət ayırdığını bildirib.

Məlumat üçün bildirək ki, "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində "Azercell" tərəfindən uşaqlar, valideynlər və müəllimlər üçün internetdən təhlükəsiz istifadə mövzusunda təlimlər təşkil edilir. Artıq mart ayının 4-dən 7-nə kimi Şəmkirdə "Azercell"in dəstəyi ilə "Azərbaycan Müəllim İnkişafı Mərkəzi" tərəfindən "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlim keçirilib. Daha bir təlim isə martın 11-də Gəncə şəhərində başlayıb. Martın 15-nə qədər davam edəcək təlimdə böyüklərlə yanaşı, uşaqların da həyatının ayrılmaz hissəsinə çevrilən internetdə rastlanan təhlükələr barədə məlumat verilir. Burada məktəblilərə kibertəhlükəsizlik anlayışı aşılanır, internetdən gələn təhlükənin dərəcəsi, səbəbləri araşdırılır. Uşaqlar təhlükəsiz portallarla tanış edilir, onlara təhlükəsiz axtarış saytlarından istifadə qaydaları öyrədilir.

Qeyd edək ki, VI Regional İnternet İdarəçilik Forumunun (RİİF) əsas məqsədi daha səmərəli, effektli regional iqtisadi inkişafa və mədəni irəliləyişə nail olmaq üçün internet tətbiqinin müxtəlif yollarını nümayiş etdirməkdir. Forum yerli iştirakçıların beynəlxalq mütəxəssislərlə təcrübə mübadiləsi və əməkdaşlıq qurması, bu sahədə mövcud vəziyyətin, qarşıya qoyulmuş vəzifələrin, müvafiq xarici strukturlara inteqrasiya məsələlərinin birgə müzakirəsi və maraqlı innovativ layihələrin nümayişi üçün ideal platformadır.

***"Azərbaycan"***


## Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir

**Tender 1 LOT üzrə keçirilir:**

- Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması.

- Respublikanın 25 şəhər və rayonunda (Ağdam, Salyan, İsmayıllı, Neftçala, Qazax, Bərdə, Ağcabədi, Sabirabad, Ucar, Zərdab, Samux, Astara, Xaçmaz, Gədəbəy, Şəmkir, Yevlax, Hacıqabul, Saatlı, Masallı, Tərtər, Cəlilabad, İmişli, Tovuz, Yardımlı, Zaqatala) Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə 80 ədəd 2 (iki) otaqlı və 220 ədəd 3 (üç) otaqlı fərdi evlərin tikintisi işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: 3000 (üç min) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **24 aprel 2019-cu il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **02 may 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **03 may 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir

**Tender 1 LOT üzrə keçirilir:**

- Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması

- Bakı şəhəri və ətrafında ümumilikdə 310 ədəd olmaqla bir, iki və üçotaqlı, Sumqayıt şəhərində ümumilikdə 130 ədəd olmaqla bir, iki və üçotaqlı, Gəncə şəhərində ümumilikdə 35 ədəd olmaqla bir, iki və üçotaqlı və Şirvan şəhərində ümumilikdə 25 ədəd olmaqla iki və üçotaqlı mənzillərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 1000 (bir min) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **24 aprel 2019-cu il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **02 may 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **03 may 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



# Cəlil Məmmədquluzadə -150

# Sizi deyib gəlmişəm...



*O gün zamanı ölçmürdü, vaxt mahiyyətini itirmişdi və yalnız bu böyük qarşılaşmanı qızıl hərflərlə tarixə həkk edirdi...*
*Gözlərini açan gündən dünyanı qaranlıq görən, aydınlıq uğrunda mübarizə aparan və illərdir mənəvi aclıqla savaşaraq bütün çətinliklərə sinə gərən iki şəxsin birləşərək zülmətə ziya saçma günü idi...*
*Mənən cilalana-cilalana, təkmilləşə-təkmilləşə uzun və çətin bir yol qət etmişdilər bu günə qədər...*
*Və bu dünyada heç nə təsadüfi olmur...*
*Tale özü onları əvvəlcədən bu gün üçün hazırlamışdı...*
*Həmin məqam yetişəndə, bir payız günü axşamçağı yolları kəsişmişdi...*
*Azərbaycanda tənqidi realist nəsrin dahi yaradıcısı, dramaturgiya tariximizdə tragikomediya mərhələsinin banisi, satirik publisistik məktəbin əsasını qoymuş Mirzə Cəlil və zadəgan ziyalı zümrəsinin ən məşhur qadın təmsilçisi, xeyriyyəçi, maarifçi Həmidə xanım Cavanşir...*





# Ölümsüz eşq

## Milli məfkurəmizin qoşa sərkərdəsi - Cəlil və Həmidə Məmmədquluzadələr

### Röya

1905-ci il oktyabrın 13-ü idi...

Həmin gün Qarabağ zadəgan ziyalı zümrəsinin nümayəndəsi Həmidə Cavanşir və böyük ədib Cəlil Məmmədquluzadə Tiflisdə Sofya Şahtaxtinskayanın mənzilində qarşılaşırlar və bu görüş hər ikisinin ömründə yeni bir dövrün başlanğıcı olur...

Bir-birlərini kəşf edirlər... Malik olduqları dünyagörüşü, ziyalılıq, həyata baxış tərzləri onlarda heyranlıq hissi yaradır...

Həmin gün Həmidə xanım atası Əhməd bəy Cavanşirin əlyazmasını Mirzə Cəlilə təqdim edir və çap olunmasını istəyir.

Söhbətləri uzanır, inqilabdan, erməni-müsəlman toqquşmasından, xalqın geri qalmasından, müsəlman qadınların acınacaqlı taleyindən danışırlar...

Hətta o zaman Mirzə Cəlil Həmidə xanıma müsəlman qadınların xeyriyyə cəmiyyətini açmaq barədə dəyərli bir təklif də verir. Bu fikir Həmidə xanımın çox xoşuna gəlir və dərhal bu ideyanı həyata keçirmək uğrunda fəaliyyətə başlayır.

Həmidə xanım xatirələrində Mirzə Cəlillə qarşılaşdığı həmin günlə bağlı "kiçik" bir detal vurğulayır: "Mirzə Cəlil az danışırdı. Ancaq arada uzun-uzadı suallar verirdi..."

Ətrafda bu qədər cahilliyin hökm sürdüyü, qadınların hüquqsuz, çadralar, buxovlar, qadağalar içərisində yaşadığı bir mühitdə, bu cür ziyalı, dünyagörüşlü bir qadının indi onun qarşısında birdənbirə zühur etməsi Mirzə Cəlili yaxşı mənada mat qoymuşdu...

Və təbii ki, o bu cür bir qadına biganə qala bilməzdi və qalmır da...

### Qəm yükü

Qadınlar tarixin bütün dövrlərində şairlərin ilham qaynağı, vəsf ünvanı olub...

Onları ala gözlü, qarğı saçlı, qələm qaşlı, pəri yerişli kimi təsvir ediblər...

Zadəgan nəslin kübar xanımı Həmidə xanım Cavanşir də bütün bu zahiri gözəlliklərə malik idi, amma həm də onda milli xanımxatınlıq ədası, Ərəbzəngi cəngavərliyi, Sara xatun diplomatikliyi bir bütünlük yaratmışdı...

Bu milli-mənəvi xüsusiyyətlər isə onun genetik kodu, əsilzadə ruhunun ayrılmaz hissəsi idi. Hələ yeniyetmə ikən rus dilini səlis şəkildə qavrayıb-öyrənmiş, kənd qızları üçün o qədər də səciyyəvi olmayan milli və dünyəvi mədəni-maarif düşüncələrinə yiyələnmişdi.

Atası Əhməd bəy Cavanşir lap kiçik yaşlarından Həmidə xanıma erkək tinətli olmağı aşılamışdı: "Mənim qızım elə olmalıdır ki, biz kişilər ölüb getsək, bizi şərəflə əvəz edə bilsin".

Zamanın axarında Əhməd bəyin uzaqgörənliklə dediyi bu sözlər həqiqətə çevrilir...

Ard-arda anasını, qardaşlarını, həyat yoldaşını, atasını itirir. O isə bu çətin sınaqlara dözməli, itirdiyi əzizlərini şərəflə əvəz etməli idi. Üstəlik, iki övladına da həm ata, həm də ana olmalıydı...

Elə Mirzə Cəlillə də ömrünün bu kədərli, fırtınalı, təlatümlü günlərində tanış olur...

Əhməd bəy son nəfəsində Həmidə xanıma daha bir vəsiyyət edir. Son arzularından biri uşaqlara məxsus mənzum hekayə və tərcümələrindən ibarət toplusunun nəşr olunması idi...

Və elə bu vəsiyyət Azərbaycan tarixinə öz adlarını qızıl hərflərlə yazdırmış iki böyük şəxsiyyətin qarşılaşmasına vəsilə olur...

O gün Həmidə xanımın yaddaşına belə həkk olunmuşdu: "Mirzə Cəlil arıq, bəstədən bir az hündür boylu idi. Səliqə ilə geyinmişdi. Əynində nişastalı yaxalıq, köbəli mahud sürtuk vardı. O, hədsiz ciddi idi, üzü heç gülmürdü, sanki çiyinlərində qəm yükü vardı. Həmin 1905-ci ildə Mirzə Cəlil həm atasını, həm anasını itirmişdi. Bu hadisədən bir ay qabaq isə yaxın dostu və qaynı - mərhum həyat yoldaşı Nazlı xanımın qardaşı Məhəmmədqulu bəy Kəngərli bir qatilin əli ilə faciəli şəkildə qətlə yetirilmişdi".

### İlk sevgi

Mirzə Cəlil özü sonradan əvvəlki həyat yoldaşı Nazlı xanımla tanışlığı barədə danışarkən deyir ki, mən, demək olar ki, hər gün Məmmədqulu bəy Kəngərligilə gedib, uzun müddət kabinetdə oturub söhbət edərdim: "Bir dəfə onun kabinetində tək oturduğum vaxt gözlənilmədən qapı açıldı, içəri gözəl bir qadın daxil oldu. Heyrətə gəldim. Adətən, müsəlman qadınlar başqa kişi gördükdə qorxub özlərini itirirlər. Amma o nə qorxdu, nə də özünü itirdi, bir neçə saniyə sakit dayanaraq mənə baxdı. O, mənə füsunkar bir mələk kimi göründü, lətif surəti xəyalımda əbədi olaraq qaldı".

Mirzə Cəlil Nazlını çox sevirmiş və Nazlı xanım da ona dəlicəsinə aşiqmiş. Və Cəlilin vaxtının çoxunu işinə sərf etməsini qəbul etmirmiş. Onu qısqanır, aylarla danışdırmırmış. Sonra müəyyən səbəblərdən psixoloji problemləri yaranır. Buna görə Mirzə Cəlil Nazlını müalicə üçün Tiflisə aparır, amma çox keçmir ki, o, vəfat edir. Nazlını itirmək Mirzə Cəlili sarsıdır, mütəmadi gedib onun məzarını ziyarət edirmiş...

### "Yoldaş və arxa"

Və elə bu iki şəxsi həm də kədərlərinin, itkilərinin ortaqlığı birləşdirirdi...

Bir-birinə arxa-dayaq, güvənc, mənəvi sığınacaq idilər...

Mirzə Cəlil Həmidə xanıma Sofya Şahtaxtinskaya vasitəsilə evlənmək təklifi göndərir.

İlk dəfə Həmidə xanım sivil bir şəkildə "yox" cavabı verir. Deyir ki, yüksək dəyərinə görə minnətdardır, ancaq ona ərə gedə bilməz, çünki onların yolları müxtəlifdir: "Mən atamın vəsiyyətinə əməl etməli, onun kənddəki mədəni quruculuq işlərini davam etdirməliyəm".

Amma bu "yox" Mirzə Cəlili fikrindən döndərmir...

Əslində Həmidə xanım özü də Mirzə Cəlil kimi bir şəxsiyyətə laqeyd deyildi və onun imza atdığı uğurları heyranlıqla izləyirdi. Deyirdi ki, həmin günlər Mirzə Cəlil "Molla Nəsrəddin" məcmuəsinin 19 may 1907-ci il tarixli 20-ci nömrəsində çox böyük hay-küy qoparmış və az qala, özünün məhvinə səbəb olacaq "Erməni və müsəlman övrətləri" başlıqlı felyeton yazmışdı. Bu məqalə Həmidə xanımın Mirzə Cəlilə verəcəyi cavaba öz təsirini göstərir...

Bəs böyük ədib həmin felyetonda nə yazmışdı ki, Həmidə xanımın ürəyini fəth edə bilmişdi: "Hər millətin içində pis övrətlər var, həmçinin müsəlman içində. Amma müsəlman övrətlərindən çoxları da var ki, tərbiyə tapıb, üzüaçıq gəzirlər; Allah eləsin ki, mənim bacım və övrətim həmin övrətlər kimi həyalı və vəfalı, saf və səlamət olsunlar".

Həmidə xanım həyatında etmək istədiyi bu dəyişikliklə bağlı həkimi Kərim bəy Mehmandarovla da məsləhətləşir. Deyir ki, keçmiş həyat yoldaşı İbrahim Davatdarov vəfat etdikdən sonra qətiyyən ərə getmək barədə düşünmürmüş. Həkimi isə cavabında ona deyir: "Siz gec, ya tez kimisə sevməli və ərə getməlisiniz..."

Sonda məntiqin yaratdığı bütün bu tərəddüdlər qəlbin istəkləri qarşısında tamamilə yox olur və Həmidə xanım Mirzə Cəlilin ona "yoldaş və arxa" olmağı fikirləri ilə razılaşıb evlənmə təklifini qəbul edir.

Beləcə bərabər 25 illik, sevincli, kədərli, enişli-yoxuşlu bir zaman diliminin astanasına qədəm qoyurlar...

Həyatları bir-birlərinin davamı, tamamlayıcısı olur...

Hər ikisi cəhalətlə, aclıqla mübarizə aparır, xalqı səfalətdən qurtarmaq istəyir, həm maddi, həm mənəvi cəhətdən...

### Onları hissləri, düşüncələri, yaşam idealları birləşdirirdi...

Burada bir neçə vacib məqama toxunmaq yerinə düşər. Bəzən Mirzə Cəlillə Həmidə xanımın evliliyinin məntiq, mənfəət üçün olduğu iddia edilir. Təhrif edərək, hətta gerçəkliyi əks etdirməyən mübaliğəyə vararaq Mirzə Cəlilin bu çaplı uğur, şöhrət qazanmasının məhz Həmidə xanımın onun üçün yaratdığı şəraitlə bağlı olduğunu yazır, söyləyirlər. Həqiqət isə tamamilə başqadır...

Mirzə Cəlil məhz necə bir xanımla ailə qurmaq istədiyini yuxarıda misal gətirdiyimiz felyetonda dəqiq verib.

Bununla yanaşı, ədib Həmidə xanımla tanış olduğu 1905-ci ilə, evləndiyi 1907-ci ilə qədər də Azərbaycan ədəbiyyatının ən parlaq nümunələrini yaratmış, "Molla Nəsrəddin"in şöhrəti ölkə sərhədlərini aşmışdı.

Və Həmidə xanım varidatını itirdikdən sonrakı illərdə də Mirzə Cəlil dayanmadan millətinin parlaq gələcəyi naminə çalışan, heç bir çətinlikdən çəkinməyən elə həmin böyük mütəfəkkir idi...

Həmidə xanım isə nə savadsız, cahil bir qız, nə də atacağı addımın, verdiyi qərarın məsuliyyətini dərk edə bilməyəcək səviyyədə biri idi.

Mirzə Cəlillə tanış olanda artıq o, neçə il idi ki, dul idi və ola bilməzdi ki, bu illər ərzində öz zümrəsinə mənsub, varlı-karlı hansısa bəydən, yaxud ziyalılardan birindən evlənmə təklifi almamış olsun.

Həmidə xanım elə bir insan idi ki, onu heç kəs hansısa bir qərar verməyə məcbur edə bilməzdi və o, öz gələcəyini Mirzə Cəlillə birlikdə görürdü...

Onları sadəcə hissləri, düşüncələri, yaşam idealları birləşdirirdi...

### Qarabağın dəmir ledisi

Evləndikdən sonra "Molla Nəsrəddin" jurnalında "şaxsey-vaxsey" adətini tənqid edən bir karikatura buraxılır. Bu karikatura müsəlmanlara, xüsusilə Qarabağın Hindarx kəndinin camaatına bərk toxunur. Hindarxlılar məsciddə and içib Mirzə Cəlili öldürməyi qərara alırlar. Adətən, Mirzə Cəlil həmişə Yevlaxa Hindarxdan və quldur-qaçaq yuvası olan Sultanbud meşəsindən keçib gedərmiş. Ədib Yevlaxa gedərkən onu Həmidə xanım Cavanşir silahlı adamla yola salıb geri qayıtmışdı.

Məqamıdır xatırladaq ki, Həmidə xanımın göstərdiyi bu cür igidliklərin sayı-hesabı olmayıb...

1918-ci ilin yayında ermənilər Ağdamdan Şuşaya gedən yolu bağlayırlar. Bunu bilən Həmidə xanım Kəhrizli və Əfətlidən gətirdiyi 200 atlı ilə birlikdə Ağdama gəlir. Hadisəni eşidən bütün kişilər mərkəzi meydana yığışırlar. Həmidə xanım başından yaylığını açıb camaata müraciət edir: "Bu gecə Ağdam-Şuşa yolu açılmalıdır. Mən də sizinlə birlikdə döyüşə gedirəm".

Həmidə xanımın atının üzəngisinə yüzlərlə əl uzanır... Çox təvəqqedən sonra Həmidə xanımı yola gətirirlər ki, o, Ağdamda gözləsin, bu gecə Şuşa yolu açılacaq. Elə həmin gecə Ağdam-Şuşa yolu ermənilərdən təmizlənir və yol açılır.

### Bütün cəbhələrdə döyüş...

Çox çətin dövr idi. Qarabağda aclıq, xəstəlik tüğyan edirdi. Əkin sahələrini çəyirtkə məhv etmişdi. Mirzə Cəlillə Həmidə xanım çətinliklərin öhdəsindən gəlməyə çalışır, sözün əsl mənasında bütün cəbhələrdə döyüşür, çiyin-çiyinə verib aclıq çəkən insanlara yardım edir, yayılan xəstəliklərin qarşısını almaq üçün öz vəsaitləri hesabına peyvənd limfaları gətirirdilər.

Amma həmişəki kimi, onların əsas savaşı maddi yox, mənəvi aclıqla idi. Həmidə xanım Kəhrizlidə oğlanlarla qızların birgə təhsil aldığı məktəb açmaq kimi çoxdankı arzusunu da Cəlillə bərabər həyata keçirir. Mirzə Cəlil onun bu fəaliyyətini təqdir edir və işin həyata keçməsinə yaxından kömək edir. Hətta ilk vaxtlar Mirzə Cəlil özü həmin məktəbdə dərs keçir, Həmidə xanımın qızı Minanı da dərs deməyə hazırlaşdırırdı.

### "Faytonçu, tələs..."

"Molla Nəsrəddin"in nəşri ilə bağlı yaranan problemlər, dəfələrlə həyatına qarşı edilən sui-qəsdlər, xəstəlik, aclıq, pulsuzluq, təsərrüfat işlərinin yaxşı getməməsi Mirzə Cəlili çox sıxırdı...

Ədib bütün bu bəlaların, problemlərin içərisində yalnız ailəsində rahatlıq tapa, nisbətən dincələ bilirdi. Deyirdi ki, hər dəfə evə qayıdarkən uzaqdan Kəhrizli kəndi görünəndə, sıralanmış qovaqların arasında bizim malikanə seçilməyə başlayanda qəlbimi xoş həyəcan bürüyür... Səbirsizliklə faytonçunu tələsdirirəm... Öz ailəmə, doğmalarıma tez çatmaq istəyirəm... Bir an da yubanmadan mənə əziz və xoş olan çevrəmdə olmaq istəyirəm...

Mirzə Cəlil Şərq musiqisini və ifaçıları çox sevirdi. Bəstəkar Üzeyir Hacıbəyli ilə, Gülablı kəndindən Aşıq Nəcəfqulu və Aşıq Abbasqulu ilə dostluq edirdi.

Yeri düşəndə milli musiqi sədaları altında rəqs də edirdi.

Tütək və kamança çalmağı da xoşlayırdı. Mirzə Cəlilin bu istəyini bilən Həmidə xanım ona başdan-başa sədəflə bəzənmiş bir kamança hədiyyə etmiş, üstəlik, onu öyrətməsi üçün yaxşı bir müəllim də tutmuşdu.

Və illər keçəcəkdi, Mirzə Cəlilə aldığı bu kamança ədibin öz ifasında son dəfə ayrılıq naləsi çəkəcəkdi...

### Yaşam olduğu kimi...

Mirzə Cəlil Həmidə xanımla birlikdə səfalı yerlərə, dağların qoynuna getməyi, atla gəzməyi xoşlayırdı...

Təbiət qoynunda olmaq, sakitlik ədibin yaradıcılıq işlərinə də müsbət təsir edirdi... O, tək işləməyi xoşlayar, hətta ən xırda səs belə fikrini dağıdıb, işini yarımçıq qoya bilirmiş. Adətən, gecə saat 4-ə kimi işləyər, səhərlər yuxudan gec qalxarmış. Gecələr pis yatanda səhərlər əsəbi, yaxşı yatdıqda isə gülərüz, zarafatcıl olarmış.

Hər adama asanlıqla inanmaz, çox tez də inciyərmiş...

Bəzən Həmidə xanımla da aralarında inciklik, mübahisə olardı...

Bir dəfə Həmidə xanım Şuşada imzasız bir məktub alır. "Ölülər" pyesinin Bakıda Tağıyevin teatrında səhnəyə qoyulduğu günlər idi. Həmin sirli məktubda isə sadəcə bu sözlər yazılmışdı...

*(ardı var)*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Bakının özünəməxsus adət-ənənələri, qayda-qanunları olan məhəllələrindən birində - Çəmbərəkənddə 1919-cu il martın 15-də dünyaya göz açdı Hacıbaba Hüseynov. Hüseynəli kişiylə Seyid Fatimənin ilkiydi. Ondan sonra ailədə yeddi uşaq da dünyaya gəldi. Biri körpə ikən vəfat etdi. Qalanları uzunömürlü oldular. Dənizçi Hüseynəli kişi bir çətən külfətini çətinliklə dolandırırdı. Çox kasıb yaşasalar da, dünya malına görə şikayətlənməzdilər. Hüseynəli kişi də, Seyid Fatimə də dindar adam idilər. Dolanışıqdan, bəxtdən, taledən gileylənməyi asilik sayır, uşaqlarına da şükürlü olmağı, qismətlərindən narazılıq etməməyi öyrədirdilər.



Hacıbaba Hüseynov - 100

# Ustad xanəndə

### Böyük oğlun qayğıları...

Hacıbaba Hüseynovun dini savad alıb axund olması ata nənəsinin arzusuydu. Bu ümidlə "İstəyirəm Hacıbaba mollaxanaya getsin" deyirdi.

Çəmbərəkənddə hamı bir-birini tanıyırdı. Toyları da bir idi, yasları da. Hacıbabanın yaxşı səsi olmasından da məhəllədə hər kəs xəbərdardı. Hələ uşaqlıq illərindən məsciddə azan vermiş, növhələr oxumuşdu. Sovet hakimiyyətinin dinə, dindarlara qarşı mübarizə apardığı, insanları allahsızlaşdırmağa çalışdığı illər idi. Elə Hacıbabanın məktəbdən uzaqlaşmasına səbəb də nənəsinin, ata-anasının aşıladığı dinə sevgi, ehtiram hissləri oldu. Bir gün masanı qaldırıb onu allahsızlığa dəvət edən komsomol təşkilatı katibinin başına çırpdı və məktəbdən qaçdı. Beləcə, Hacıbaba Hüseynovun təhsil həyatı 1933-cü ildə, 4-cü sinifdə bitdi.

Evin ilk övladı olmaq Hacıbaba Hüseynov üçün həyatı erkən anlamaq, çətinliklərinə qatlaşmaq deməkdi. Kasıb ailənin böyük oğlu olduğundan uşaqlığını, yeniyetməliyini qayğısız keçirə bilmədi. Atasının köməyinə çatdı. Onunla birlikdə dənizə çıxdı, hələ bərkiməmiş qollarının gücüylə qayıqla gətirilən malları daşıdı.

Yoxsulluq, ağır gün-güzəran nənəsinin arzusunu gözündə qoymuşdu. Yaşlı qadın sevimli nəvəsinin axund olmamasına təəssüflənir, göz yaşı tökürdü: "Mən uşağımı mollaxanaya qoyacaqdım. Axund olacaqdı. Gör uşağım getdi nə oldu..."

Kiçik yaşlarında arabir dodaqaltı zümzümə etdiyinə görə atası xəbərdarlıq etdi: "Bilirəm səsin var, hərdənbir mızıldanırsan. Amma birdən çaşıb xanəndə-zad olarsan ha..." Atası onun oxuyan olacağından narahat idi. Əslində, təşvişə düşməsinə səbəb yox idi. Çünki o zaman Hacıbaba özü də bu fikirdən çox uzaq idi.

Uşaq yaşlarından bununla barışmışdı, ona elə gəlirdi ki, belə də olmalıdır. Evin böyük övladı kimi bacı-qardaşlarından çox əziyyət çəkməyə məcbur idi. Atasının xəstəliyə tutulması, bir müddət yataqdan qalxa bilməməsi Hacıbabanın qayğılarını daha da artırdı. Ağır yük qaldırmaqdan Hüseynəli kişinin beli yara bağlamışdı. Elə bu mərəzlə də həyatdan köçdü. O vaxt Hacıbaba iyirmi bir-iyirmi iki yaşlarındaydı. Atasını itirəndən sonra ailənin yükünü təkbaşına çiyinlərinə götürdü. Zəhmətə alışmışdı. Bacarıqlıydı. Atasının məsləhəti ilə sənət sahibi də olmuşdu. Bir müddət "Paris kommunası" adına zavodda tornaçı işlədi.

1941-ci ildə başlayan Böyük Vətən müharibəsinə aparılmamasına səbəb də yaxşı tornaçı olması idi. Buna görə onu arxa cəbhədə saxladılar.

### Müəllimsiz öyrəndiyi sənətin müəllimi...

O, heç vaxt musiqidən, muğamlardan, xalq mahnılarından uzaq yaşamadı. Ancaq uzun illər məlahətli səsi ilə yalnız özü üçün oxudu. Sonralar deyirdi: "Nə olsun səsim vardı. Mən inanmazdım xanəndə olacağam".

Tornaçılıqdan aldığı məvacib yetməyəndə ailəsini dolandırmaq üçün başqa yol axtarırdı. Amma yenə də xanəndə olmağı ağlından belə keçirmirdi. Qohumu, qarmonçalan Teymur Dəmirov onu özü ilə toylara aparmağa başladı. Əvvəl xanəndə yox, nağaraçalan kimi gedirdi toylara. O, nağara çalmağı da məktəbsiz, müəllimsiz öyrənmişdi. İştirak etdiyi Bakının kənd toylarında yaxşı səsi olduğundan xəbəri olanlar xahiş edirdilər ki, oxusun. O da hərdənbir bir-iki mahnı, ya da muğam ifa edirdi. Sonralar o günləri belə yada salırdı: "Utanırdım, Zülfinin, Seyidin, Xanın qarşısında oxuya bilməzdim".

Yavaş-yavaş tornaçılıqdan uzaqlaşmağa, toylara getməyə başladı. 1945-ci ildə müharibə bitəndən sonra, o zamanlar artıq xanəndə kimi tanınan baldızı Sara Qədimova Hacıbaba Hüseynovu görkəmli pedaqoq, tarzən Əhməd Bakıxanovla tanış etdi. O, gənc Hacıbabanı öz ansamblna işə dəvət etdi. Həmin ansamblda üç il çalışdı. Güclü hafizəsi vardı. O vaxta qədər də əruz vəzninin qayda-qanunlarını mənimsəmişdi. Cavanlıqdan şeir, qəzəl, müxəmməs yazırdı. Bir də çox mütaliə edir, qəzəl kitabları oxuyurdu. Məhəmməd Füzuliyə, Seyid Əzimə sevgisi sonsuzdu. Həmin ansamblla çıxış etdiyi illərdə isə Hacıbaba Hüseynov Əhməd Bakıxanovdan, digər musiqiçilərdən, xanəndələrdən muğamın incəliklərini öyrəndi. Ömrünün sonunadək Əhməd Bakıxanovu özünün ustadı saydı.

Hacıbaba Hüseynovun orta səsi var idi. Amma onun ifasına elə-belə qulaq asmaq olmurdu. Səsi sanki dinləyicilərini başqa bir aləmə aparırdı. O, xanəndəlik dərsi də almamışdı. Baxıb, müşahidə edib, dinləyib öyrənmişdi. Hələ 1938-ci ildə xanəndə Zülfi Adıgözəlovun valını əldə edən Hacıbaba Hüseynov onun oxuduqlarını təkrar edir, yamsılayırdı. Dostları ona "Sən oxuyanda elə bilirik Zülfi oxuyur" deyirdilər. Ancaq vaxt keçdikcə Hacıbaba Hüseynov öz bənzərsiz ifasıyla dinləyicilərin könlünü ovsunlamağa başladı.

İlk vaxtlar Hacıbaba Hüseynovu Bəhram Mansurovla Tələt Bakıxanov müşayiət etdi. Birlikdə konsertlərə, toylara getdilər. Sonralar isə xanəndə Hacıbaba Mirnazim Əsədullayev və Ağasəlim Abdullayevin müşayiəti ilə oxudu.

Özünün sənətdə müəllimi olmasa da, bu sahədə təhsil almasa da, çoxlu tələbəsi oldu. 1963-cü ildən o, Asəf Zeynallı adına Musiqi Məktəbində xanəndəlik sənətindən dərs deməyə başladı. Burada müəllim işlədiyi otuz ildə neçə-neçə xanəndə yetişdirdi. Hacıbaba Hüseynov dərs demədiyi bir çox xanəndəyə də muğamların, musiqi sənətinin, qəzəliyyatın sirlərini öyrətdi.

### Yaddaşlarda qalan səs...

Heç vaxt şan-şöhrət əsiri olmadı. Ad-san üçün çalışıb-vuruşmaq ona yad idi. Bir də yalnız öz səsinə uyğun mahnılar ifa edirdi. Aşıq Alının "Nə qaldı" mahnısını gözəl oxuyurdu. Amma deyirdi ki, bu mahnı mənim üçün deyil. "Qara tellər" xalq mahnısını çox sevirdi. Oxumurdu ki, onun möhürünü Bülbül vurub...

Yetmiş yaşınadək heç bir fəxri ad almadı, xaricə qastrol səfərlərinə göndərilmədi. 1989-cu ildə, 70 illik yubileyindən sonra ilk dəfə xarici səfərə, böyük bir musiqiçi və ziyalı heyəti ilə İraqa getdi. 1990-cı ildə Türkiyənin Adana şəhərində, 1991-ci ildə bir ay ərzində Fransanın Paris, Marsel, Leon, Monpelye, Belçikanın Brüssel şəhərlərində, İsveçrədə, Hollandiyada konsertlər verdi. Son səfəri 1992-ci ildə on iki nəfərlik musiqiçi heyəti ilə iki aydan artıq çəkən İran İslam Respublikasına oldu. İran səfəri də yaddaqalan idi.

Hacıbaba Hüseynov 1989-cu ilin martında əməkdar artist, 1990-cı ilin oktyabrında isə xalq artisti fəxri adları ilə təltif olundu. Ömrünün sonuna cəmi üç il qalırdı...

Əvvəllər hərdən ziyarət etdiyi Bibiheybət qəbiristanlığına son illərində tez-tez baş çəkirdi. Özünü əvvəlki kimi gümrah hiss etmirdi. Son vaxtlar toylara da getmirdi. Birdən-birə halı dəyişdi. Həkimə apardılar. Dedilər, ürəyində işemiya var. Buna görə xəstəxanada qaldı. Getdikcə zəifləyirdi, sonra təngnəfəslik başladı. Uşaq vaxtı pnevmaniya keçirmişdi, ağciyərində ləkə vardı. Təngnəfəslik ağciyər xərçənginə çevrildi. Ağır xəstə idi. Xəstəliyini bilmirdi...

Xəstəxanadan cəmi on gün idi çıxmışdı. Səsinin heyranı olanlar isə xanəndəni görmək, ifasını dinləmək istəyirdilər. O gün də Sumqayıta dəvət olunmuşdu. Evə gec qayıtdı. Həmin gün - 1993-cü ilin 24 oktyabrında Hacıbaba Hüseynov bu dünyayla, sevənləri, sevdikləriylə vidalaşdı. Xanəndə Fəxri xiyabanda torpağa tapşırıldı.

İfa etdiyi muğamlar, xalq mahnıları, xüsusən "Bərəyə bax, bərəyə", "Qarpız kəsdim, yeyən yox" və başqa neçə-neçə təsnif onun ifasıyla məşhurlaşdı. Bir zamanlar oxuduğu, yeni ruh, yeni nəfəs verdiyi həmin muğamlar, xalq mahnıları, təsniflər Hacıbaba Hüseynovu yaddaşlarda saxlayır.

2019-cu ilin martında Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, tanınmış pedaqoq, respublikanın xalq artisti Hacıbaba Hüseynovun anadan olmasının 100 illiyi tamam olur. Sənətkarın yubileyinin qeyd edilməsi haqqında Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamda deyilir: "Qədim xanəndəlik sənəti ənənələrinin layiqli davamçılarından biri kimi Hacıbaba Hüseynov muğamı və bədii sözü ahəngdar şəkildə uzlaşdırmış, yüksək ifaçılıq mədəniyyətinin parlaq nümunələrini yaratmışdır. Təsirli və məlahətli səsə malik sənətkar mahir ifaçısı olduğu rəngarəng muğamlarla yanaşı çoxsaylı təsniflər və xalq mahnıları ilə musiqisevərlərin qəlbində silinməz iz qoymuşdur. Hacıbaba Hüseynov daim saflığını qorumağa çalışdığı muğamın tədrisi sahəsində də uzun illər səmərəli fəaliyyət göstərmiş və məşhur xanəndələrin bütöv bir nəslinin yetişdirilməsinə böyük əmək sərf etmişdir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT 1 -** Ethernet portlarının və ayrılmış internet kanallarının qoşulmasında istifadə etmək üçün mal-materialların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, satınalma müqaviləsini bağlamaq səlahiyyətləri olmalı, maliyyə durumları qənaətbəxş olmalı, satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilmiş müvafiq sahədə peşəkar və təcrübəli olmalı, texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı, vergilər və digər icbari analoji hökumət ödənişləri üzrə icra vaxtı keçmiş olmamalıdır.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 100.00 (bir yüz ) manat (ƏDV xaric) iştirak haqqını**

sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kod: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **26 aprel 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **06 may 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **07 may 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

***Əlaqələndirici şəxs:***
***Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29***

***Tender komissiyası***

*Təkrar*

## Gəncə Şəhər Səhiyyə İdarəsi

### *açıq tenderə dəvət edir*

**Tender 3 LOT üzrə keçirilir:**
**LOT 1 - Cari təmir işlərinin görülməsi**
**LOT 2 -Yumşaq inventarların alınması**
**LOT 3- Əsaslı təmir işlərinin görülməsi**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gəncə, Nizami pr. 412 (Əlaqələndirici şəxs: Abbasova Gülnaz Əkbər qızı, telefon: (022) 266-55-33) ünvanından ala bilərlər .

**İştirak haqqı**
**LOT 1 -100 manat**
**LOT 2 - 150 manat**
**LOT 3 - 200 manat**
**Hesab: AZ92CTRE00000000000002120631**
**Təsnifat kodu 142340**
**Səviyyə kodu 7Y**
**VÖEN 2300213451**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003941**
**SWIFT: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- digər sənədlər:*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22.04.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə - 06.05.2019-cu il saat 17:00-a qədər Gəncə şəhəri, Nizami pr., 412 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07.05. 2019-cu il LOT.1 - 10:00; LOT.2 - 11:00; LOT.3 - 12:00 tarixdə Gəncə şəhəri Nizami prospekti, 412 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi 2019-cu ildə Bakı şəhərində və regionlarda dövlət bayramlarına, bölgələrin yaradıcılığına həsr olunmuş festival, bayram, müsabiqə və tədbirlərin, eləcə də uşaq və gənclər arasında incəsənətin növləri üzrə respublika müsabiqə və festivalların təşkili işlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**2019-cu ildə Bakı şəhərində və regionlarda dövlət bayramlarına, bölgələrin yaradıcılığına həsr olunmuş festival, bayram, müsabiqə və tədbirlərin, eləcə də uşaq və gənclər arasında incəsənətin növləri üzrə respublika müsabiqə və festivalların təşkili işlərinin satın alınması ilə əlaqədar**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (əlaqələndirici şəxs: Qılıncov Bəxtiyar, telefon 012 498 97 81, bgilinjov@gmail.com)** ala bilərlər.

**İştirak haqqı: 150 manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu : 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10.04.2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **18.04.2019-cu il saat 17:00-a** qədər **AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19.04.2019-cu il saat 14:00-da AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC müxtəlif növ elektrik avadanlıqlarının satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1:** Müxtəlif növ elektrik avadanlıqlarının satın alınması - **350 manat**

**Azərişıq ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 aprel 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **02 may 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **03 may 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Toner xidmətinin satın alınması məqsədilə kotirovka sorğusunun nəticələri barədə

### BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 06.02.2019-cu il tarixdə keçirilmiş toner xidməti üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə "Print Deluxe" MMC 12.309,00 (on iki min üç yüz doqquz) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 13 mart 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

### *Anbar rəflərinin hazırlanması və quraşdırılması işinin satın alınması məqsədilə kotirovka sorğusunun nəticələri barədə bildiriş*

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 18.02.2019-cu il tarixdə keçirilmiş anbar rəflərinin hazırlanması və quraşdırılması işi üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə "Azərtranss" MMC 7.823,40 (yeddi min səkkiz yüz iyirmi üç manat qırx qəpik) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 11 mart 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

### DÜZƏLİŞ

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 02 mart 2019-cu il tarixdə dərc olunmuş açıq tender elanında LOT-8 aşağıdakı kimi oxunmalıdır: ***Bərk inventarın (dəmir reys üzərində hərəkət edən dəmirdən elektron mobil stellajlar) satın alınması.***

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Şıxlar, Kəngərli, Acarlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İmran Hacıqayıbov ailəsi ilə birlikdə prokurorluğun veteranı Yusif Cəlilliyə anası

**MÖHTƏRƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Gender və tətbiqi psixologiya kafedrasının kollektivi iş yoldaşları dosent Rövşən Cavadova anası

**GÜLSÜM ALIŞ QIZI CAVADOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8566
Sifariş 894
Qiyməti 40 qəpik